

## Milyonların ziyarətgahı-Mövlanə muzeyi
3

## Vətəndaşların rifah və məmnunluğuna xidmət edən sosial islahatlar


2



# Səs

№ 143 (6584) 12 avqust 2022-ci il. Qiymətı 60 qəpik

**İLHAM ƏLİYEV: "Sosial siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"**

# Böyük Qayıdış

## üçün 5 il ərzində nələr ediləcək?


5

## YAP qalib xalqımızın Zəfər partiyasıdır!



4




Qlenn Disyen: "Dünya Şərq və Qərb bloklarına bölünür, Qərbin iqtisadi hegemoniyası başa çatır" 10




**"Ermənistanın bu prosesdə səmimi olmasını istəyirik"** 4

## Uşaqlar hansı cizgi filmlərinə baxmalıdır?

16



Sosial Sahibkarlıq nədir və buna necə başlamaq olar


11

**Klassik media və sosial media: tənzimləmə prinsipləri necə olmalıdır?** 15

**"Laçındakı evlər ermənilərə məxsus olmadığı üçün yandırılır"**


4

# Vətəndaşların rifah və məmnunluğuna xidmət edən sosial islahatlar

## İLHAM ƏLİYEV: "Sosial siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"



**Ölkə əhalisinin rifahının və məmnunluğunun təminatı, həyat səviyyəsinin yüksəldilməsi, həssas qruplara diqqət və qayğının artırılması Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin ana xəttini təşkil edir. Atılan mühüm addımlar, xüsusilə son illərdə həyata keçirilən ardıcıl inqilabi sosial islahatlar bu istiqamətdə mühüm uğurların əldə olunmasına, sosial müdafiə və aktiv məşğulluq proqramlarının ildən-ilə genişləndirilməsinə imkan verib.**

Həyat səviyyəsinin yüksəldilməsində xüsusi rol oynayan sosial ödənişlərin artırılması sosial islahatların əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyev son 19 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursuna istinad etməklə, bu dahi şəxsiyyətin ideyalarını siyasi, sosial-iqtisadi sahələrdə layiqincə reallaşdırıb, respublikamızın gələcək uğurlarına əsaslı təminat yaradıb. Azərbaycanda ötən müddətdə iqtisadiyyat dinamik inkişaf edib, mühüm qlobal enerji və kommunikasiya layihələri reallaşdırılıb, sosial problemlərin həlli - işsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması, infrastrukturun bütün sahələrdə yeniləşdirilməsi istiqamətlərində önəmli addımlar atılıb, vətəndaşların firavan, azad yaşayışı, insan hüquq və azadlıqlarının təmini, habelə demokratikləşmə yolunda önəmli tədbirlər həyata keçirilib.

### SOSİAL SİYASƏT HƏMİŞƏ PRİORİTET OLUB VƏ OLACAQ

Azərbaycan sosial dövlətdir və ən vacib məqamlardan biri də Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılmasıdır ki, Prezident İlham Əliyev bu sahəni də daim xüsusi diqqətdə saxlayır. Azərbaycan dövlətinin sosial siyasəti, əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində atılan addımlar, şəhid ailələri, müharibə veteranları və iştirakçılarına dövlətin diqqət və qayğısı göz önündədir.Sözsüz ki, bütün bu işlər Azərbaycanın güclü iqtisadi imkanları hesabına həyata keçirilir. Prezident İlham Əliyevin müəyyən etdiyi mükəmməl strategiyanın nətciəsidir ki, 2022-ci ilin birinci yarısında Azərbaycan yüksək istiqadi inkişaf göstəriciləri əldə edib. Baxmayaraq ki, hazırda dünyada sürətli iqtisadi tənəzzül baş verir, amma bu mənfi iqtisadi şoklar Azərbaycan iqtisadiyyatına ciddi təsir etmir. Çünki iqtisadiyyatımız dayanıqlıdır və möhkəm təməllər üzərində qurulub. Prezident İlham Əliyev bütün bunlarla bağlı deyib: "Sosial siyasət həmişə prioritet olub və olacaq. Bütün atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır". Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin, ilk növbədə, əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Məhz bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik bir ölkə kimi tanınır. Əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi məsələsi hər ilin dövlət büdcəsində də qarşıya prioritet vəzifə kimi qoyulub. Hazırda ölkəmizin əsas inkişaf prioritetlərindən biri vətəndaşların rifahının yaxşılaşdırılması, həyat şəraitinin yüksək standartlara uyğunlaşdırılmasıdır. Bu baxımdan, Prezidentimizin yeni sosial paket olaraq təqdim olunan sərəncamları, minimum pensiyanın, eləcə də minimum əməkhaqlarının artırılması təşəbbüsü mühüm addımlardandır. Məhz bu uğurlu daxili siyasətin nəticəsində ölkəmiz güclü iqtisadiyyata, qüdrətli orduya, dünya arenasında sayılıb-seçilən mövqeyə sahibdir. Bununla yanaşı, Azərbaycan həm də, güclü, vətəndaş mərkəzli sosial siyasətə malikdir. Belə ki, dövlətimizin başçısının fərman və sərəncamları ilə 2022-ci ilin əvvəlindən Azərbaycanda sosial ödənişlərin artımını nəzərdə tutan növbəti islahat paketi həyata keçirilib, 3,4 milyon nəfəri əhatə edən bu paket üçün illik əlavə 2,1 milyard manat ayrılıb. Ümumilikdə son 3 ildə ölkəmizdə 4 milyon insanı əhatə edən 3 sosial islahat paketi həyata keçirilib və bu islahatlar üçün əlavə olaraq illik 6 milyard manat vəsait ayrılması təmin edilib. Son 4 ildə ölkəmizdə əmək müqavilələrinin sayı 30 faiz, əməkhaqqı fondu 2,2 dəfə artıb. 2022-ci ilin 1 may tarixinə isə əmək müqavilələrinin sayında ilin əvvəlinə nisbətən 7 min artım qeydə alınıb.

### ŞƏHİD AİLƏLƏRİNƏ, MÜHARİBƏ ƏLİLLƏRİNƏ VƏ DİGƏR HƏSSAS QRUPLARA BÖYÜK QAYĞININ DAVAMI

Dörd il əvvəl ölkəmizdə keçirilən seçkilərdə İlham Əliyevin ölkə seçicilərinin mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçilməsi onun rəhbərliyi ilə 2003-2018-ci illərdə ölkənin nail olduğu dinamik inkişaf kursunun, o cümlədən sosial sahədə qazanılmış mühüm nailiyyətlərin uğurla davam etdirilməsinə şərait yaratdı. Və 2018-ci ilin aprelində ölkə Prezidenti seçildikdən sonra imzaladığı ilk - 19 aprel 2018-ci il tarixli fərmanın məhz şəhid ailələri ilə bağlı olması və həmin ailələrə növbəti ciddi dəstək tədbirini nəzərdə tutması da bunu sübuta yetirir. Həmin fərmanla, həmçinin 2019-cu ilin yanvar ayında imzalanan digər fərmanla yeni mühüm sosial müdafiə proqramı icra edildi - 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının - 12 min şəhidin 18 mindən çox vərəsəsi 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təmin olundu.

Həmçinin, dövlət başçısının 23 dekabr 2021-ci il tarixli fərmanı isə 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşlarının, onlardan vəfat etmiş şəxslərin vərəsələrinin də birdəfəlik ödəmə (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) ilə təminatını nəzərdə tutur və bu prosesə də yaxın vaxtlarda başlanacaq. Eyni zamanda, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı tarixi Zəfər əldə etdiyi, torpaqlarımızın Ermənistanın 30 ilə yaxın davam etmiş işğalından azad edildiyi 44 günlük Vətən müharibəsində iştirak edən şəxslərə "Müharibə veteranı" adı verilərək onlara Prezidentin aylıq təqaüdü təyin edildi ki, bu da daha bir sosial dəstək proqramı kimi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.Həmçinin, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olaraq və fondun mühüm sosial layihələrindən biri kimi Abşeron rayonunda çoxmənzilli yaşayış binaları inşa etdirilərək dövlət uşaq müəssisələri məzunlarının istifadəsinə verilib. Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin "Məzun evi" sosial xidmət müəssisəsi kimi fəaliyyət göstərən həmin yaşayış binalarında 365 məzun mənzillə təmin olunub. Bununla yanaşı, müxtəlif ərazilərdəki yeni yaşayış komplekslərində də bu kateqoriyalardan olan şəxslərin mənzillə təminatı davam etdirilir. Dövlət başçısının tapşırığı ilə müharibə əlillərinin avtomobillə təminatı da uğurla davam edir. Son 4 ildə də 1450-dək, ümumilikdə isə ötən dövrdə 7400 müharibə əlili minik avtomobili ilə təmin edilib.

### 4 İLDƏ MİNİMUM ƏMƏKHAQQI 2,3 DƏFƏ, ORTA AYLIQ ƏMƏKHAQQI 40 FAİZƏ YAXIN ARTIB

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanmasının təsdiq edən faktlar və rəqəmlər: 2003-2018-ci illərdə ümumi daxili məhsulun 3,2 dəfə yüksəldiyi ölkəmizdə əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, əməkhaqları təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artmışdı. 2018-ci ildən sonrakı köklü sosial islahatlar bu istiqamətdə inqilabi irəliləyişlərə nail olunması ilə nəticələnib. 2019-cu ildə sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə daha çox artıb. Pandemiyanın məşğulluğa və rifaha mənfi təsirlərinin qarşısının alınması üçün genişmiqyaslı dəstək proqramları icra olunub. 2022-ci ilin əvvəlindən isə 3,4 milyon şəxsi əhatə edən əməkhaqqı, pensiya və digər sosial ödənişlər artırıldı və bunun üçün illik əlavə olaraq 2,1 milyard manat ayrıldı.Beləliklə, yalnız son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın artıb. Minimum pensiyada 2,2 dəfə, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə 3 dəfədən çox artım baş verib.Bir sözlə, dövlət başçımızın dediyi kimi: "Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. Əlbəttə buna nail olmaq üçün, ilk növbədə, iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq".

Beləliklə də, əminliklə demək olar ki, Prezident İlham Əliyevin apardığı sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

***RƏFİQƏ KAMALQIZI***






# Milyonların ziyarətgahı-Mövlanə muzeyi

"İçində nur olmayana kənardan verilən tövsiyə fayda verməz", "Qapı açılar, yetər ki, sən döyməyi bacar. Nə vaxt? Bilmirəm. Sən o qapıda durmağı bacar" kimi aforizmlər bizim həyat yolumuzda bir göstərici, işıqdır. İşimiz çətinə düşəndə sanki bu fikirlər bizim həyat məktəbimizə çevrilir, öyrəndikcə öyrənir və atacağımız addımlarda düzgün yol seçməyimizə qərar verir. XIII əsrin dahi şəxsiyyətlərindən olan, daxili dünyasında böyük eşq - ilahi eşq gəzdirən məhşur şairlərindən, türk və İslam dünyalarının ən böyük sufilərindən olan Mövlanə Cəlaləddin Ruminin söz mücrüsündən olan bu aforizmlər dünya ədəbiyyatının nadir incilərindədir. Elm və hikmətə sahib olan böyük ustada "Savadlılar sultanı" adının verilməsi onun əql və hikmət sahibi olduğuna söykənir.Bu gün müxtəlif mədəniyyətlərin bir araya gəldiyi harmonik ruha sahib olan məkanda - Türkiyənin Konya şəhərində Mövlanə muzeyi yerləşir. Bir ziyarətkahdır bu məkan. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva avqustun 9-da Türkiyənin Konya şəhərində olarkən Mövlanə muzeyini ziyarət ediblər. Konyanın Karatay səmtində yerləşən muzeyi 1926-cı ildən Mövlanənin yaşadığı bina kompleksində fəaliyyət göstərir. Mədəniyyət ocağı həm də "Mövlanə türbəsi" kimi tanınır. Hündürlüyü 25 metr olan türbə dörd qalın - "fil ayaq" adlanan sütunlar üzərində tikilib. Türbənin əsas günbəzi firuzəyi rəngli olduğundan "Yaşıl qübbə" adlandırılır. İçəridən piramida formalı olub üç tərəfi açıq, cənub tərəfdən isə divarlarla örtülü olan türbənin üstü qızılı ulduzlar, zeminləri isə müxtəlif rənglərlə boyanıb. Qübbənin yuxarısında ağ xətlə "Bismillah" və "Ayətül kürsü" həkk edilib. Kompleksdə yer alan məsciddə Qaramanoğulları və Osmanlı dövrlərinə aid əlyazma, "Qurani-Kərim"in nüsxələri, Məsnəvilər və miniatür əlyazmaları ilə xalı səccadələr nümayiş etdirilir ki, Mövlanə Muzeyinə gələnlər bu nümunələr ilə tanış olurlar. Bu türbə, Mövlanənin ölümündən sonra inşa edilib. Mövlanə 1273-cü ilin 17 dekabr tarixində vəfat edəndən sonra məhz burada atasının yanında dəfn olunur.







Bəs, görək onun həyat yolu haradan və necə keçib. Əsl adı Muhammədd Cəlaləddindir və Mövlanə ləqəbi isə ona hələ gənc yaşlarında ikən Konyada dərs verməyə başladığı zamanlarda verilmişdir. Məsnəvisi ilə şöhrət qazanan böyük türk sufisi monqol-tatar yürüşü vaxtı atası ilə birlikdə Anadoluya köçmüşdü. Atası dövrünün elmlərini yaxşı bilən alim idi. Cəlaləddin ilk təhsilini də məhz ondan almış, az bir müddətdə biliyi və savadı ilə Anadoluda şöhrət qazanmış ətrafına çoxlu tələbə toplamışdı. Cəlaləddin Anadoluda, əsasən Konya şəhərində yaşadığına görə Rumi təxəllüsü ilə ( o vaxtlar Anadoluya Rum ölkəsi deyirdilər ) şeirlər yazırdı. Onun türkcə yazdığı bir neçə şeirindən başqa qalan əsərləri farscadır. Fars ədəbiyyatında məsnəvi formasını şöhrətləndirən məhz Cəlaləddin Rumi olmuşdur. Mövlanə 38 yaşında olarkən 60 yaşlı İslam piri, dərviş Şəmsəddin (Şəms) Təbrizi ilə tanış olur. Bu tanışlıq Cəlaləddinin dünyagörüşünə dərin təsir göstərir, onun fikir dünyasını kökündən dəyişdirir. Şəms Mövlanəyə elmə dərin yiyələndikdən sonra ağılın yerinə eşqin, kitabın yerinə şəxsi təcrübənin daha da üstün olduğunu başa saldı. Həmin andan Ruminin həyatı tamamilə dəyişdi. Cəlaləddin Mövlanə Ruminin şeirləri xalq arasında geniş yayıldığından çox vaxt zərb-məsəl, atalar sözü kimi işlədilir: "Ya göründüyün kimi ol, ya olduğun kimi görün", "Ey dil! Sən sonsuz bir xəzinəsən, həm də dərmanı olmayan dərdsən!"

Mövlanənin "Məsnəvi"si 25618 beytdən ibarətdir. Bu əsər bir çox dünya dillərinə tərcümə olunub. Digər əsəri "Məktubat" adlanır. Bu əsər 147 məktubun toplusudur."Divani Kəbir"də 2073 qəzəl vardır. 44 min 8 yüz 34 beytlik şeirlərdən ibarət əsərdir. Mövlanənin "Aşiqlər Divanı" formasında adlandırdığı əsər eyni zamanda "Şəms Divanı", ya da "Divan-ı Şəmsi Təbrizi" kimi anılır. Divan ədəbiyyatında divanların şairlərinin adları ilə anılması ənənəsinə uyğun olmayan bu son adlandırma onun qəzəllərinin sonunda öz adı əvəzinə Şəmsi Təbrizi adından istifadə etməsindən irəli gəlir.Ruminin şeirlərində dərin düşüncə ilə lirik duyğu birləşdirilmişdir. Onun əsas məqsədi insanda və kainatda gizli olan həqiqətləri göstərməkdir. "Söylənənlərə diqqətlə qulaq as, amma hamısını doğru sanma. Səssiz qalmaq bir şey bilmədiyin anlamına gəlməz" kimi deyimlərdə insanı sanki daxildən tərbiyə etmə, onun həyat hikmətini anlatma kimi bir məqsəd dayanır. "Hər kəsi özünə bərabər hesab et. Kim olursa-olsun, bir insanı kiçiltmək ağılsızlıqdır" - deyən Rumi onu da yazırdı ki, "cəsarət ağıldan doğursa, cəsarətdir, savadsıqlıqdan gəlirsə, cəhalətdir". Saymaqla bitməyən bu müdrik ifadələrdə insan özünü tapır, haqqa qovuşur. Yol getdiyin insanın psixologiyasını, həyat mövqeyini sənə açıq-aydın göstərir. Odur ki, Mövlanə Cəlaləddin Rumi kimi böyük, müdrik insanların yazdıqlarını oxumalı, öyrənməli, hətta çətinə düşəndə söz mücrüsü bizə yol göstərən olmalıdır. Rumi böyüklüyü budur ki, bu gün onun adını daşıyan Mövlanə muzeyi bir ziyarətgahdır.

***Zümrüd BAYRAMOVA***




# YAP qalib xalqımızın Zəfər partiyasıdır!

## *YAP İdarə Heyətinin iclası keçirilib*





**Avqustun 11-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında genişləndirilmiş iclası keçirilib.**

İclasda partiyanın Təftiş Komissiyasının, Veteranlar Şurasının, Gənclər Birliyinin və yerli təşkilatlarının sədrləri, YAP Mərkəzi Aparatının məsul əməkdaşları və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru iştirak edib.

İclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi ilə əlaqədar Tədbirlər planı və partiyanın fəaliyyəti ilə bağlı cari məsələlər çıxarılıb.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçdiyini, möhtəşəm nailiyyətlər qazandığını diqqətə çatdırıb. Yüksək nüfuza malik olan YAP-ın qalib xalqımızın Zəfər partiyası olduğunu və sıralarının ildən-ilə genişləndiyini bildirən Tahir Budaqov yubiley çərçivəsində həyata keçiriləcək tədbirlərin Heydər Əliyev irsinin, Prezident İlham Əliyevin siyasətinin, partiyanın 30 illik inkişaf yolunun öyrənilməsi və təbliği baxımından əhəmiyyətli olduğunu deyib.

YAP Sədrinin müavini partiyanın Tədbirlər planında əks olunmuş məsələlərlə bağlı geniş məlumat verib.

Sonra YAP İdarə Heyətinin üzvləri Elmar Qasımov, Asif Əsgərov, Bayram Aslanov, Musa Quliyev və Hikmət Məmmədov Tədbirlər planının yüksək səviyyədə hazırlandığını və partiyanın 30 illiyinin qeyd edilməsi ilə əlaqədar bütün zəruri məsələlərin nəzərə alındığını vurğulayıblar.

Tədbirlər Planı yekdilliklə təsdiq edilib. Sonra iclasda digər məsələlərə baxılıb.

YAP İdarə Heyətinin üzvləri Tahir Mirkişili, Elmar Qasımov, Cavid Osmanov, Bahar Muradova, Ramiz Hüseynov, Elnur Sadıqov və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev cari məsələlərlə əlaqədar çıxış ediblər.

Müzakirəyə çıxarılan hər bir məsələ ilə bağlı müvafiq qərar qəbul olunub.

## "Laçındakı evlər ermənilərə məxsus olmadığı üçün yandırılır"



"10 noyabr üçtərəfli bəyanatından sonra Laçın, Ağdam və Kəlbəcər Azərbaycan ordusuna təhvil verildi. Ermənilər Kəlbəcəri boşaldarkən evləri, əraziləri, meşələri yandırırdılar". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Asif Nərimanlı deyib.

Asif Nərimanlı bildirib ki, artıq eyni proses Laçında baş verir: "Bu, bir daha təsdiq edir ki, Qarabağ ərazisi ermənilərə məxsus deyil. Çünki birinci Qarabağ müharibəsini müqayisə etdikdə oradan çıxan azərbaycanlılar doğma yurdlarından çıxarkən əşyalarını belə götürməmişdilər. Bu, onu göstərir ki, Qarabağ Azərbaycanındır. İnsan öz qurduğunu, düzəltdiyini yandıra bilməz. Həm də qayıdacağı düşüncəsi ilə də etməz. Lakin ermənilərin Kəlbəcəri və Laçını yandıraraq tərk etməsi ondan irəli gəlir ki, bu evlər onlara məxsus deyil. Azərbaycana zərər vurmaq istəyindədirlər. Düzdür, Azərbaycan Qarabağda yenidənqurma işləri apararaq hər yeri yeniləyəcək. Ermənilər istəyirlər ki, azərbaycanlılar yurdlarına qayıdarkən evlərini yanmış vəziyyətdə görsünlər".

***Qönçə Quliyeva***

# Azərbaycan ilə Çin arasında bütün sahələrdə münasibətlər uğurla inkişaf edir

### YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çinin Azərbaycandakı səfiri ilə görüşüb



**Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Minin təşəbbüsü ilə avqustun 11-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında səfirlə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov arasında görüş keçirilib.**

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub, Azərbaycan ilə Çin arasında siyasi, iqtisadi, humanitar sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb.

Xanım Qo Min Çinin Azərbaycanı dost və tərəfdaş ölkə olaraq gördüyünü, daim Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirib. O, son zamanlar Tayvan ətrafında yaranmış gərgin vəziyyətlə bağlı rəsmi Pekinin mövqeyini çatdıraraq Vahid Çin prinsipinin əhəmiyyətini vurğulayıb.

YAP Sədrinin müavini Tahir Budaqov qeyd edib ki, ərazilərinin bir hissəsi 30 ilə yaxın müddətdə işğal altında qalmış, bir milyondan artıq qaçqın və məcburi köçkün problemi ilə üzləşmiş Azərbaycan beynəlxalq hüququn təməlində dayanan suverenlik və ərazi bütövlüyü prinsiplərinə hər zaman önəm verib. Bu baxımdan, Azərbaycan Çinin ərazi bütövlüyünə, Vahid Çin prinsipinə dəstəyini dəfələrlə ən yüksək səviyyədə ifadə edib və bu gün də eyni mövqedədir. Eyni zamanda, Cənubi Qafqazda sülh və etimad quruculuğu məsələsindən danışan Tahir Budaqov Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın tələblərini, o cümlədən qanunsuz silahlı birləşmələrin Qarabağ bölgəsindən çıxarılması və Zəngəzur dəhlizinin reallaşdırılması ilə əlaqədar öhdəliklərini hələ də yerinə yetirmədiyini vurğulayıb. O, bununla bağlı İrəvana beynəlxalq təzyiqlərin artırılmasının vacibliyini qeyd edib, bu məsələdə Çinin də Azərbaycanın haqlı mövqeyini müdafiə edəcəyinə ümidvar olduğunu bildirib. Bundan əlavə, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərinin görüldüyünü diqqətə çatdıran YAP Mərkəzi Aparatının rəhbəri Çin şirkətlərinin bu işlərdə fəal iştirakına geniş imkanların olduğunu söyləyib.

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri də müzakirə olunub.

## "Ermənistanın bu prosesdə səmimi olmasını istəyirik"




"Məlum olduğu kimi, Ermənistanla bizim xüsusi nümayəndələrimiz görüşürlər. Artıq bəzi addımlar atılmışdır. Bu prosesdə Azərbaycanla eyni mövqedəyik. Bu addımların bəzən Ermənistanda narahatlıq yaratdığını görürük." Bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu avqustun 8-də Ankarada işə başlayan "Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda keçirilən XIII Səfirlər Konfransının bağlanışı ilə bağlı mətbuat konfransında deyib.

Türkiyənin şəffaf ölkə olduğunu diqqətə çatdıran Mövlud Çavuşoğlu söyləyib: "Bizim hər işimiz açıqdır. Geniş miqyasda Cənubi Qafqazda normallaşma barədə fərdi düşünmək mümkün deyil. Birlikdə addımlar atmalıyıq. Apardığımız danışıqlar ikitərəfli olsa da, bütün Cənubi Qafqazın sabitliyi naminə hamımızın səy göstərməsi vacibdir. Bu məsələdə Ermənistanın daha qətiyyətli və qərarlı olması lazımdır. Proseslərdən yayınma taktikasından kənar durmaq faydalıdır. Biz bu prosesdə Türkiyə olaraq səmimiyik. Ermənistanın da səmimi olmasını istəyirik. Azərbaycanın da səmimi olduğunu görürük".

# Böyük Qayıdış üçün 5 il ərzində nələr ediləcək?

**Əvvəlki yazılarımızda Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan məsələlərlə bağlı prioritet sahələrin hansılar olduğu və yeni inkişaf modelinin necə həyata keçiriləcəyindən danışmışıq. Bu yazımızda işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulan işlər və Böyük Qayıdış prosesinin necə həyata keçiriləcəyindən danışacağıq.**

Strategiyaya görə, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Əhalinin dayanıqlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. İşğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsinə nail olunacaq.

Qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla bölgədə yaşayış və qeyri-yaşayış kompleksləri inşa ediləcək, müasir infrastruktura malik "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları həyata keçiriləcək. Bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək. Kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi qurulacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticədə, ilkin strateji mərhələdə əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı əsasda planlaşdırılan məskunlaşmasına nail olunacaq.











## STRATEJİ PLANLAR

İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək. İqtisadiyyatın qurulması məqsədilə iqtisadi fəaliyyətin canlanmasının sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması təmin ediləcək.

Ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi nəticəsində ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaq. Regionda dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modelləri yaradılacaq.

Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcək. Mədənçıxarma sahəsində təbii ehtiyatlar dövlət?özəl tərəfdaşlığı çərçivəsində dövriyyəyə cəlb olunacaq. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaq. Qarabağ bölgəsi turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyası olacaq.

İlkin mərhələdə, bərpa və quruculuq prosesinə paralel olaraq özəl layihələr dəstəklənməklə ticarət xidmət-logistika mərkəzləri şəklində iqtisadi zonaların, müasir istehsal infrastrukturu olan sənaye parkları və məhəllələrin yaradılması istiqamətində işlər görüləcək.

İqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal və emal sahələrinin fəaliyyəti müasir infrastrukturla dəstəklənəcək, prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimullar veriləcək, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə alətləri geniş tətbiq olunacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaq.

Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyası tətbiq ediləcək. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq. Bu Prioritet "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində icra ediləcək.

Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" üzrə strateji çərçivəyə əsasən təbii resurslardan dayanıqlı və davamlı istifadə təmin olunacaq. Ətraf mühitə dost sənayeləşmə təşviq ediləcək, bu məqsədlə tullantıların səmərəli idarə olunması sistemi inkişaf etdiriləcək. Hidrometeoroloji müşahidə və ətraf mühitin monitorinqi sistemi müasirləşdiriləcək.

Bioloji müxtəlifliyin qorunması, su bioresurslarının artırılması və akvakulturanın inkişafı təmin olunacaq, meşə ilə örtülü ərazilərin və yaşıllıqların mühafizəsi gücləndiriləcək. Nəticədə, ölkə üzrə ümumi ərazidə yaşıllığın payı 12%-dən 12,3%-ə çatdırılacaq. İstifadəyə yararsız torpaq sahələrinin payı 25%-dən 15%-ədək azalacaq.

Əhalinin içməli su ilə təminatı 70%-dən 85%-ə, suvarma suyu ilə təminatı 80%-dən 90%-ə çatacaq. Tullantıların təkrar emalı prosesinin əhatə dairəsi 20% (regionlarda 10%) təşkil edəcək. Xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin ümumi sahəsinin ölkənin ümumi torpaq fonduna nisbəti 10,5% olacaq. Meşə fondunun 65%-i inventarlaşdırılacaq. Torpaqların 30%-də aqrokimyəvi analizlərin aparılması təmin olunacaqdır.

Energetika sektorunda tənzimləmə mühiti təkmilləşdiriləcək və liberal bazar prinsipləri tətbiq olunacaq. Bərpa olunan enerji mənbələrindən istifadə artırılacaq, enerji səmərəliliyi təmin ediləcək. İqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə ekoloji təmiz nəqliyyat vasitələrindən və digər yaşıl texnologiyalardan istifadə genişləndiriləcək. Nəticədə, energetika sahəsində dövlətin maliyyə yükü azaldılacaq və subsidiyaların mərhələli şəkildə aradan qaldırılması reallaşdırılacaq. Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payı 2026-cı ilədək 24%-ə çatdırılacaq (2030-cu ilədək 30% hədəfinə uyğun olaraq).

Beləliklə, 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında ən vacib işlərdən biri haqda sizlərə məlumat verdik. Göründüyü kimi, qısa müddətdə bu istiqamətdə çox böyük və effektiv işlərin görülməsi planlaşdırılır. Artıq bu ildən bu işlərə başlanıb. Tezliklə, ölkəmizin Qarabağ və Şərqi Zəngəzur bölgələrinin abad, sağlam və inkişaf etmiş zonaya çevriləcəyinə şübhə yoxdur. Bunun üçün siyasi iradə də var, lazımi resurslar da var, müvafiq maliyyə vəsaiti də.

İşğaldan azad edilmiş bölgələrin ölkənin sosial-iqtisadi, ictimai-mədəni həyatına qoşulması üçün cəmi bir neçə il vaxt tələb olunur. Nəticədə, bu işlər ölkədə tarazlı və davamlı iqtisadi inkişafa, sosial rifaha böyük bir töhfə verilmiş olacaq.

***Elçin***



# Türkiyə - iki dünya arasında arbitr

*Rusiya ilə yaxınlaşma və Qərbin sanksiyalarına qoşulmama siyasətində Ankaranın məqsədi*

**Qərblə Rusiya arasında gizli müharibənin isinməsinə təkan verən faktorlardan biri və ən əsası sanksiyalar oldu desək yanılmarıq. Brüssel və Vaşinqton cütlüyü bilirdi ki, Rusiyanı müharibə ilə, təzyiqlə yola gətirə bilməyəcəklər, ona görə də əvvəlcə sanksiyalardan başladılar. Dostlarını və müttəfiqlərini də öz sıralarına qatdılar. Amma bəzi ölkələr və hətta NATO kimi dünyanın ən güclü hərbi blokunda yer alan, hətta bu qurumda quru qoşunlarının sayına görə ön sırada dayanan Türkiyə, o cümlədən Avropa İttifaqının üzvü, müttəfiqlərinin hər addımını təkrarlamağı öhdəsinə götürmüş Macarıstan tam olaraq Rusiyaya qarşı tətbiq olunan sanksiyalara qoşulmayıblar və əlbəttə öz arqumentləri ilə.**




"Ankara niyə Rusiyaya qarşı Qərbin sanksiya rejiminə qoşulmadı" sualı indi çoxlarını düşündürür. Avropalı analitiklər də həqiqət axtarışındadırlar, səbəbləri sadalamaq üçün fakt axtarırlar. Bununla belə Türkiyədə çoxları əmindir ki, Ukraynadakı münaqişənin günahkarı Rusiya deyil.

Türkiyə NATO-nun üzvüdür, Aİ ilə Gömrük İttifaqının üzvüdür və Ukraynanın strateji tərəfdaşıdır. Eyni zamanda, rəsmi Ankara Rusiyaya qarşı sanksiya rejiminə qoşulmayıb. Dahası, Ukraynada Rusiyanın xüsusi əməliyyatının başlaması ilə Türkiyə tədricən Rusiyanın sanksiyalarına məruz qalan biznes, oliqarx və turistlər üçün təhlükəsiz sığınacağa çevrilib. Rusiya və Türkiyə prezidentlərinin bu yaxınlarda Soçi görüşündə də bu tendensiya davam etdirilib. Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan əlavə olaraq Rusiya qazının rublla qismən ödənilməsi barədə razılığa gəliblər. Türkiyə həmçinin Rusiyanın 5 bankında "Mir" ödəniş sisteminin tətbiqinə razılıq verib.

### Bu siyahı yekundurmu?

Xatırladaq ki, bu görüş ərəfəsində "The Washington Post" qəzeti Putinin Ərdoğandan Qərbin sanksiyalarından yayınmaq üçün kömək istəyəcəyini yazmışdı. Xüsusilə, söhbət Aİ-nin neft embarqosunun tətbiqindən sonra neftin mənşəyini gizlətmək üçün Türkiyənin neft emalı zavodlarında, neft çənlərində və terminallarında pay almaqdan gedir. İndi isə "Financial Times"ın yazdığına görə, Qərb ölkələri, xüsusən də Aİ üzvləri Türkiyənin özünə qarşı sanksiyalar tətbiq etməyi düşünür. Sual yaranır, Ankaranın bu cür kursunu nə müəyyənləşdirir? Bəs Qərbin sanksiyaları təhlükəsi onu bu mövqeyini dəyişməyə məcbur edə bilərmi?

### Türkiyə niyə sanksiyalara qoşulmadı?

Türkiyənin sanksiyalar rejiminə qoşulmamaqla bağlı "xüsusi" mövqeyinin bir neçə səbəbi var - konseptualdan tutmuş praqmatikə qədər. Birincisi, Türkiyə hakimiyyəti sanksiyaları xarici siyasətin effektiv aləti kimi tanımır. Ankara bundan əvvəl də dəfələrlə sanksiyalara qoşulmaq imkanını rədd edərək, onların səmərəsiz, əks-məhsuldar olduğunu, pozan ölkələri təcrid etməyə və gərginliyi artırmağa kömək etdiyini təkid edib. Amma Türkiyə rəhbərliyinin ritorikası ənənəvi olaraq sülhə, münaqişənin bütün tərəfləri ilə dialoqa, iqtisadi əməkdaşlığın davam etdirilməsinə və danışıqlarda moderator kimi çıxış etməyə hazır olmağa çağırışlarla qaynayır. Bu, Türkiyənin münaqişənin hər iki tərəfi ilə işlək siyasi təmaslarını və iqtisadi əlaqələrini saxlamağa kömək etməklə yanaşı, həm də "mübahisənin arbitri" kimi çıxış edən və effektiv vasitəçilik üçün diplomatik resurslar təmin edən ölkə kimi beynəlxalq arenada mövqeyini əhəmiyyətli dərəcədə gücləndirir. Yeri gəlmişkən, Ankara İrana münasibətdə də oxşar mövqedən çıxış edir. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iranlı həmkarı ilə bu yaxınlarda keçirdiyi görüşdə bir daha Türkiyənin İrana qarşı "birtərəfli sanksiyalara" qarşı olduğunu bəyan edib və onların aradan qaldırılmasına çağırıb.




İkincisi, Ankara Rusiya Federasiyasına qarşı sanksiya rejiminə qoşulmaqdan imtinasını uğurlu vasitəçilik üçün Moskva ilə dialoqun davam etdirilməsi zərurəti ilə izah edir. Taxıl təşəbbüsünün imzalanmasından və Birgə Koordinasiya Mərkəzinin yaradılmasından sonra İstanbul daha bir arqument əlavə etdi - guya sanksiyalar bu "qida arteriyasının" qorunub saxlanmasına mane olacaq, bu da Afrika və Orta Şərq ölkələrinə taxıl tədarükünü təmin etməlidir. Soçi görüşündən və Ərdoğanın Zelenski ilə Putin arasında danışıqların bərpasının zəruriliyi ilə bağlı bəyanatlarından sonra bu arqumentlər daha da güclənəcək. Bundan əlavə, əgər Türkiyənin vasitəçilik rolu Rusiya Federasiyası ilə iqtisadi əməkdaşlığını tam əsaslandırmayıbsa, o zaman ən azı Qərbin tənqidlərinə qarşı qismən immunitet təmin edib.

Üçüncüsü, sanksiyalar məsələsi Ankaranın özü üçün son dərəcə həssasdır, çünki Türkiyə uzun illərdir ki, Qərb tərəfdaşlarının - Aİ, Kanada və ABŞ-ın, ilk növbədə, hərbi-sənaye sahəsində sanksiyaları altındadır. Ankaranın Rusiyadan S-400 hava hücumundan müdafiə sistemlərini alması üçün Amerikanın CAATSA paketi və Türkiyə müdafiə sənayesi rəhbərliyinə qarşı şəxsi sanksiyalar, Türkiyənin F-35 proqramından çıxarılması və F-16 ilə bağlı əməkdaşlığın dayandırılması, insan hüquqlarının pozulmasına görə Avropa sanksiyaları, 2019-cu ildə Suriyanın şimalında və İraqda kürdlərə qarşı hərbi əməliyyatlar səbəbindən silah embarqosu, hətta 2020-ci il Qarabağ müharibəsi zamanı məşhur bayraqtarlar üçün Kanada optik elektron sistemlərinin tədarükünə qoyulan qadağa Türkiyənin özünə qarşı sanksiyaların tam siyahısı deyil.

Dördüncüsü, ölkədə anti-Qərb əhval-ruhiyyəsi güclənir. Türkiyənin informasiya meydanında hələ də qlobal problemlərin Rusiyanın xüsusi əməliyyatı deyil, Qərbin sanksiyaları ucbatından qaynaqlandığı rəvayətləri üstünlük təşkil edir. Həmçinin, Türkiyə vətəndaşlarının əksəriyyəti əmindir ki, Ukraynadakı münaqişənin günahkarı Rusiya deyil, ABŞ və NATO-dur. Ona görə də onları Rusiya ilə əməkdaşlıqdan niyə imtina etməli olduqlarına inandırmaq kifayət qədər çətindir.

Bundan əlavə, Türkiyə Aİ-nin üzvü deyil, ona görə də sırf texniki baxımdan onun sanksiyalar paketlərinə qoşulmamalıdır. Türkiyə rəsmiləri bir neçə dəfə sanksiyaların BMT səviyyəsində tətbiq olunacağı təqdirdə nəzəri cəhətdən onlara qoşulmağa hazır olacaqlarını bəyan ediblər. Bu ssenarinin qeyri-real olması bir tərəfdən məsuliyyətdən azad edir; digər tərəfdən, bu baş versəydi belə, BMT çətiri Rusiya ilə birbaşa münaqişədən yayınardı. Nəhayət, daxili siyasi amil bu məsələdə əsas rol oynayır.

Seçkilərdən əvvəlki aylarda Türkiyədə iqtisadi vəziyyət ürəkaçan deyil, inflyasiya və lirə bütün antirekordları vurur və Rusiya mühüm ticarət tərəfdaşı və asan, adətən qeyri-şəffaf olsa da, pul axını mənbəyi olaraq qalır. Bundan əlavə, ölkə Rusiyanın enerji resurslarının təchizatından, Rusiya bazarlarından və rus turistlərindən kritik dərəcədə asılıdır. Belə bir şəraitdə Rusiya Federasiyasına qarşı sanksiyaların tətbiqi Türkiyə iqtisadiyyatı və türk seçicisi üçün şok olacaq.

### Türkiyə Qərbin sanksiyalarını pozaraq nə qədər uzağa gedə bilər?

Ticarət-iqtisadi sahədə Rusiya hələ də Türkiyə üçün arzuolunan tərəfdaş olaraq qaldığı halda, təhlükəsizlik, hərbi-texniki əməkdaşlıq və müdafiə sahəsində Rusiya Federasiyası rəqibdir, NATO isə problemli olsa da, Türkiyəni xeyli gücləndirən tərəfdaşdır. Ankaranın çox maraqlı olduğu F-16 və digər silah növləri üzrə əməkdaşlığın bərpası Rosatom-un Türkiyə bank hesablarına birdəfəlik bir neçə milyard dollar köçürməsindən az cəlbedici təklif deyil. Həm də unutmaq olmaz ki, Türkiyənin əsas ticarət tərəfdaşı olaraq Rusiya deyil, Avropa Birliyi qalır.

2021-ci ildə Aİ ilə ticarət 178 milyard dolları ötüb. Rusiya ilə arzu olunan yüz milyard dollarlıq ticarət haqqında uzun illər mantraların fonunda - faktiki otuz beş milyarda qarşı - bu rəqəm sanksiyaların qırmızı xətlərini keçməmək üçün ciddi arqument kimi görünür. Bundan əlavə, ötən il Aİ-nin Türkiyə ixracatındakı payı 41,3% təşkil edərək, Türkiyə məhsullarının ən çox idxalçısı və Türkiyə büdcəsinin "sponsoru" olub. 35 milyard ticarət dövriyyəsinin yalnız 5,8 milyardını Rusiya Türkiyədən ixrac edir.

Türkiyə Qərbin İrana qarşı sanksiyalarından yan keçmək üçün milyonlarla dollarlıq əməliyyatlar apardığına görə həbs ediləb iranlı iş adamı Rza Zərrabın adını yaxşı xatırlayır. Sanksiyaları pozmaqda ittiham olunan "Xalq Bank" - Türkiyənin dövlət bankı məhz bu qalmaqala görə uzun illərdir ki, Türkiyə-Amerika münasibətlərində dərin böhranın simvoluna çevrilib. "Qazprombank"la başlanacaq yeni gərginlik bu münasibətləri birdəfəlik dayandıra bilər.

### Qərbin Türkiyəyə qarşı təsirsiz sanksiyaları

Eyni zamanda, Qərbin Türkiyəyə qarşı yeni sanksiyalarının tətbiqi daxildə Avropaya qarşı münasibətləri mənfiyə doğru artıra bilər ki, bu da problemin həll yolu deyil. Əksinə, Türkiyə cəmiyyətində "Türkiyəni siyasi və iqtisadi cəhətdən zəiflətmək istəyən" Qərbə "xain imperialist" damğası vurular və növbəti hiddət dalğasına səbəb olar. Bundan sonra bu fürsətdən məmnuniyyətlə istifadə edənlər Türkiyənin yerinə keçər ki, bu da Avropaya lazım deyil, Türkiyənin yerini heç kim əvəzləyə, tuta bilməz. Moskvadan Türkiyəyə digər təkliflər də ünvanlanır, Şanxay Təşkilatına və BRİKS-ə dəvətlər səslənib. Növbəti ünvan KTMT ola bilər.

***V.VƏLİYEV***

# Qondarma qəhrəmanlar və qəhrəmanlıqlar barədə ERMƏNİLƏRİN ETİRAFLARI

**Bu zamana qədər özlərini qəhrəman kimi göstərməyə çalışan, hətta bu vaxta qədərki dövrü qəhrəmanlıq dövrü kimi xararakterizə etmək istəyən ermənilər indi utanc və məyusluq dövrü yaşadıqlarını etiraf edirlər. Etiraf edirlər ki, qəhrəmanlıq barədə yaratdıqları miflərin hamısı darmadağın olub və indi buna görə, hətta çox utanırlar. Ona görə utanırlar ki, qəhrəman saydıqları, qəhrəman kimi qəbul etdikləri heç də qəhrəman deyilmiş və qəhrəmanlıqları da boş söhbət, cəfəngiyyat imiş.**



Bir vaxtlar, Ermənistanın ikinci prezidenti Robert Koçaryanı qəhrəman kimi qələmə verənlər yanıldıqlarını etiraf etməkdən çəkinmirlər. Hadisələrin gedişatını izləyənlər, xatırlayanlar Koçaryanı sərt şəkildə ittiham edirlər. Onların ittihamlarına görə, Birinci Qarabağ müharibəsində Azərbaycanın torpaqlarını işğal etməkdə "özünəməxsus rolu" olduğundan qəhrəman kimi qəbul etdikləri Robert Sedrakoviç əslində, ermənilərin həyatını cəhənnəmə çevirən birisidir. Robert Koçaryanın Ermənistanda hakimiyyəti qəsb etdiyini ermənilər artıq açıq şəkildə bildirir və onun hakimiyyəti illərində çəkdikləri acıları da gizlətmirlər. Bir sözlə, Koçaryanın qəhrəman olmadığı, Ermənistan ictimaiyyətinə zərər verən biri olduğu artıq qəbul edilir. Ermənistana məxsus mətbuat səhifələrində indi açıq-aşkar bütün bunlar yazılır və tirajlanır.

Serj Sarkisyanı da üfürüb şişirənlər, qəhrəman kimi görənlər və təqdim edənlər yanıldıqlarını dilə gətirirlər. Kimdir Serj Sarkisyan və nəyə görə qəhrəman kimi qələmə verilib? Əslində, Sarkisyanın bir separatçı, bir terrorçu olduğunu hər kəs bilir, nəinki ermənilərin özləri. Onun Qarabağda törədilən terror hadisələrində "müstəsna xidmətlər" göstərdiyi də bəllidir. Xislətində terrora, terrorçuluğa meyillilik olan ermənilər nə vaxtsa onu qəhrəman kimi qəbul edə bilərdilər, amma sonra gördülər ki, heç də Serj onların düşündüyü deyil və hakimiyyət kürsüsündə oturduğu zaman onun da mahiyyəti, kimliyi ortaya çıxdı. Əbəs yerə deyildi ki, 2018-ci ildə erməni cəmiyyəti Sarkisyanla vidalaşmalı oldu. Hərçənd indi onun tərəfdarları bir də ortaya atılıblar və yenə də ondan bir qəhrəman düzəltmək xayalına düşüblər, amma çox gecdir. Hiyləgərlikdə tayı-bərabəri olmayan bir cəmiyyət, erməni cəmiyyəti bu fırıldağı görməyə bilməz və yalançı qəhrəmanı bir də onlara sırımaq çətin ki, müyəssər ola.

Sözsüz ki, Serj Sarkisyanı devirən zaman ermənilər beli çantalı bir küçə nümayişçisini də qəhrəman sayırdılar. Ən azından onu da qəhrəman kimi qələmə verirdilər. Bu dəfə həmin o küçə nümayişçisi Nikol Paşinyan guya ki, demokratiya uğrunda fədakarlıq edən qəhrəman kimi qəbul edildi və bütün dünyaya elə də təqdim edildi. Gah əl-qolunun yaralandığını, gah da sanki demokratiya, azad söz kimi ali dəyərlər uğrunda qışqırmaqdan səsinin tutulduğunu nümayiş etdirən Nikol xalqının qəhrəmanı kimi qəbul edildi və o da bundan istifadə edərək dərhal hakimiyyət kürsüsünə oturdu. Daha dəqiq desək, Nikol Vovayeviç artıq bir müddətdir ki, Qərbin ixrac etdiyi demokratiya oyunundan məharətlə istifadə edərək, hakimiyyəti ələ keçirdi. Lakin





hakimiyyətə gəlməzdən öncə xalqa verdiyi vədləri hakimiyyəti qamarladıqdan sonra onun da yadından çıxdı. Küçə və meydanlarda bar-bar bağıran Nikol hakimiyyəti ələ keçirəndən sonra erməni xalqına "qızıl dağlar" barədə vəd etdiklərinin birini belə reallaşdırmadı. Bunun üçün cəhd belə göstərmədi. Demokratiyanı komuflyaj kimi istifadə edən birinin yadına demokratiya, söz, fikir, ifadə azadlığı düşmədi də. Əksinə, öz hakimiyyətini mühafizə etmək niyyəti ilə, ağlar və qaralar olmaqla, erməni cəmiyyətini iki hissəyə böldü, repressiyaları da gücləndirdi. Bir sözlə, erməni baş nazirin etdikləri demokratiyaya tamamilə zidd hərəkətlər idi. Qısa zaman fasiləsində ermənilər gördülər ki, guya demokratiya carçısı olan Paşinyan insan hüquq və azadlıqlarını köbud şəkildə pozur və hətta tapdalayır. Deməli, bu küçə nümayişçisinin də qəhrəmanlığı barədə ermənilərin yaratmış olduqları mif də əvvəlkilər kimi dağıldı. Üstəlik, həmin o küçə nümayişçisinin istər diplomatik müstəvidə, istərsə də döyüş meydanında məğlub durumunu bütün erməni cəmiyyəti dəfələrlə izlədi. Ələlxüsus, İkinci Qarabağ müharibəsi zamanı nəinki ermənilər, bütün dünya bunu müşahidə etdi. Müharibədə guya ardıcıl qələbələr qazandıqları barədə öz xalqını aldatması da onun bir yalançı, manipulyator olduğunu bir daha isbatladı. Bir sözlə, Nikolun da yalançı qəhrəman olduğu ortaya çıxdı və bu dəfə də ermənilər yanıldıqlarını gördülər. Gördülər ki, bu yalançı demokratiya carçısı da qəhrəman deyilmiş, avantürist imiş.

Avantüristlər, manipulyatorlar erməni cəmiyyətində az deyil və onlar həmin cəmiyyətdə bu zamana qədər qəhrəman sayılıblarmış. Lakin onların hər birinin yalançı qəhrəman olduğunu indi ermənilər açıq şəkildə etiraf edirlər. İndi ermənilərin belə etirafları özlərinə məxsus mətbuat səhifələrində də qeyd olunur. Məsələn, Birinci Qarabağ müharibəsinin guya cəsur döyüşçüsü sayılan Seyran Ohanyanın Ermənistanın Müdafiə Nazirliyinə rəhbərlik etməyə başladığı illərdə korrupsiyanın baş alıb getdiyi, erməni hərbçilərinin, əsgərlərinin ac-yalavac qaldığı, paltarsız belə olduğu, xüsusən, ermənilər üçün sirr deyil, bunu onlar yaxşı bilirlər. Yaxşı bilirlər ki, qəhrəman kimi sırınan Ohanyan əsgərlərə məxsus olanları belə mənimsəyib. Belə qəhrəmanmı olar? Təkcə ermənilər yox, hansı xalq belə birini qəhrəman kimi qəbul edər? Heç bir xalq qəbul etməz, necə ki, indi ermənilərin özləri də onu artıq qəhrəman hesab etmirlər, korrupsioner, talançı sayırlar və yanıldıqlarını etiraf etməkdən də çəkinmirlər. Əbəs yerə deyildi ki, Azərbaycanın 2016-cı il aprel döyüşlərindəki qələbələrindən, uğurundan sonra Sarkisyan Ohanyanı müdafiə naziri vəzifəsindən azad edəndə bir çox hərbçilərin valideynləri rahat nəfəs aldıqlarını dilə gətirmişdilər.

Birinci Qarabağ savaşının daha bir dırnaqarası "erməni qəhrəmanının", Manvel Qriqoryanın da əslində, qəhrəman olmadığı etiraf olunur. Onun çirkin əməlləri, daha dəqiq desək, cinayət əlaqələri, biznesmenlərin işini əlindən almaq üçün onlara təzyiqlər, hətta basqınlar etməsi kimliyini ortaya qoydu. Qriqoryanın bağ evində aparılan axtarışlar zamanı üzə çıxan ərzaqlar, gigiyena, dərman vasitələri, həblər, sarğılar, yardımlar erməni əsgərlər üçün nəzərdə tutulan, təyin olunan idi. Əsgər üçün olan hərbi geyimlər, ümumiyyətlə hər şey onun evində saxlanıldığı halda, erməni əsgərlər geyim tapmırdılarsa, dərmana möhtac idilərsə, yemək tapmırdılarsa, onu qəhrəman saymaq olardımı? Olmazdı, amma əsgər üçün nəzərdə tutulanlar onun bağ evində aşkarlanan zaman erməni cəmiyyəti həmin bu qənaətə gəldi, bunun fərqində oldu. Fərqində oldu ki, qəhrəman saydıqları, əslində bir oğru imiş.

Qəhrəman adına ləkə olan, amma bu zamana qədər qəhrəman sayılan, əslində isə, oğru və quldur olanları erməni cəmiyyətində saydıqca bitən, tükənən deyil. Hansı qəhrəmanı barədə araşdırma aparılırsa siması, daha doğrusu, simasızlığı ortaya çıxır. Bu araşdırmalar artıq ermənilərin özləri tərəfindən aparılır və onların özlərinə məxsus mətbuat səhifələrində belə açıq-aşkar yayımlanır. Bir sözlə, qəhrəman saydıqlarının, əslində, yaramaz olduğu barədə həmin mətbuat səhifələri vasitəsi ilə erməni cəmiyyətinə informasiyalar artıq davamlı şəkildə verilir. Bu isə, əslində, qondarma qəhrəmanları və qəhrəmanlıqları barədə ermənilərin etiraflarıdır.

***İnam Hacıyev***

# London Ukraynaya daha üç MLRS verir...

**Böyük Britaniya Ukraynaya verdiyi M270 reaktiv yaylım atəş sistemlərinin sayını iki dəfə artırmaq qərarına gəlib. London daha üç MLRS və onların sursatını köçürməyə hazırdır. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə Britaniya Müdafiə Nazirliyinin rəhbəri Ben Uolles "BBC"-yə verdiyi açıqlamasında bildirib.**

Onun sözlərinə görə, Britaniya Ukraynanın Qərbin artıq təmin etdiyi M270-lərdən necə istifadə etməsindən çox məmnundur. Ukrayna Silahlı Qüvvələri sursatların tez tükənməməsi üçün hansı hədəfləri vuracağını daha yaxşı ayırd etdiklərini göstərdi.

"...Böyük Britaniya və beynəlxalq ictimaiyyət bu qeyri-qanuni müharibəyə qarşı olaraq qalır və Putinin işğalından müdafiə etmək üçün Ukraynaya müdafiə yardımı göstərməkdə yan-yana olacaq".

Qeyd edək ki, bunu britaniyalı nazir Ben Uolles bildirib. Onu da bildirək ki, ili dəfə iyulun 14-də Ukraynaya verilən M270 MLRS taktiki raketlər üçün işəsalma qurğusu kimi istifadə edilən universal buraxılış qurğusudur.

...Bundan əvvəl hərbi ekspert Sergey, müharibənin gedişatını dəyişmək və Rusiya Federasiyasını məğlub etmək üçün Ukraynaya HIMARS və ya M270 MLRS kimi ən azı 300 yeni nəsil çoxsaylı buraxılış raket sistemi lazım olduğunu bildirmişdi.



***Ağasəf Babayev***

**Bəli, artıq üzümüz ağ, başımız ucadır. Hansı ölkəyə hansı məqsədlə, istər qonaq, istər turist kimi, istər işgüzar səfər, istər idman yarışları üçün gediriksə, orada "haralısan" sualına qürurla "Azərbaycanlıyam" deyirik. Çünki namusumuz, şərəfimiz olan torpaqlarımız artıq düşmən tapdağı, yağı işğalı altında deyil. Biz 30 ildən sonra, 2020-ci ildə 44 günlük İkinci Vətən Müharibəsi ilə düşməni torpaqlarımızdan qovduq. Qan axıtdıq, minlərlə şəhid verdik, minlərlə qazimiz oldu, lakin 30 ilin hicranını vüsala, 30 ilin nisgilini sevincə çevirə bildik.**

Bu gün düşmən tərəfindən daşı daş üstündə qalmayan Qarabağda böyük quruculuq işləri həyata keçirilir. Həm də bu işlər sürətlə görülür. Ona görə ki, bu torpaqların sahibləri yurd-yuvalarına tezliklə qayıtsınlar, 30 illik həsrətə son qoysunlar. Didərgin, köçkün, qaçqın sözlərini yaxalarından atsınlar. Budur, necə də qürurludur, İslam Həmrəyliyi kimi möhtəşəm oyunlarda idmançılarımız ilk dəfə olaraq qalib ölkəmizi təmsil edirlər. Bunun özü də qələbə üçün böyük stimuldur. Onlar qalib Azərbaycanın idmançılarıdır. Hər qələbə zamanı bayrağımız yüksəklərə qalxıb dalğalandıqca o dalğalarda oyunun qələbəsi ilə yanaşı, Qarabağın qələbəsi də dalğalanacaq, qürur üzərinə qürur gətirəcək.



# İslam Həmrəyliyi Oyunlarında idmançılarımız ilk dəfə qalib Azərbaycanı təmsil edirlər



## Prezidentimizin idmançılarla görüşü onlarda qələbə stimulu yaradır

Avqustun 9-da Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşməsi onlarda yüksək əhval-ruhiyyə, qələbə əzmi yaradıb.

Dövlətimizin başçısının hava limanından birbaşa idmançılarla görüşə getməsi ölkəmizdə bu sahəyə verilən diqqətin, göstərilən qayğının təzahürüdür. Prezident cənab İlham Əliyev: "Mən indicə Konya Hava Limanında yerə enmişəm və hava limanından dərhal buraya, sizinlə görüşə gəlmişəm. Bu, bir ənənədir. Hər dəfə mötəbər beynəlxalq yarışlar ərəfəsində idmançılarla görüşüb onlarla söhbətləşirəm. Bu dəfə də istisna deyil. Bu dəfə V İslam Həmrəyliyi Oyunlarında siz Azərbaycanı təmsil edəcəksiniz. Əminəm ki, ləyaqətlə təmsil edəcəksiniz. Çünki bizim idmançılar artıq bütün beynəlxalq yarışlarda öz gücünü təsdiqləmişlər. Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azərbaycan azarkeşləri də bir növ buna öyrəşiblər. Əminəm ki, idmançılarımız bu dəfə də gözəl nəticə göstərəcəklər. Artıq birinci qızıl medalımız var. Komandanı bu münasibətlə təbrik etmək istəyirəm. Oyunların rəsmi açılış mərasimi bu gündür, amma Oyunlar artıq davam edir. Əminəm ki, bu gözəl nəticə digər idmançılar üçün də gözəl bir stimul olacaq".

Bu il 30 ildir ki, ölkəmizdə Olimpiya Hərəkatı başlanıb. Həmin dövrə bu günün prizmasından nəzər saldıqda gözlərimiz önündə bir qərinəyədək zaman kəsiyinin uğur və nailiyyətlərlə dolu mənzərəsi açılır. Bəlkə də 30 ilin əvvəlində idmanın inkişafı ilə bu zirvəyə gəlib çıxmağın mümkünlüyü heç ağıla da gəlməzdi. Çünki həmin dövr o dövr idi ki, ölkə iqtisadi cəhətdən tənəzzülə uğramışdı. Sovet imperiyasının buxovlarından yenicə azad olan xalq olmazın çətinlikləri ilə üz-üzə qalmışdı. Bu, həyat tərzi olaraq gənclərimizdən də təsirsiz keçmirdi. Milli Ordumuzun yenicə təkmilləşdiyi o illərdə gənc oğlanlar 4-5 il əsgəri xidmət keçir, qayıdanlar işləmək üçün iş yerləri tapmırdılar. Gənc qızların da sosial həyatı çox passiv şəkildə idi, onların asudə vaxtlarının səmərəli təşkili üçün əsaslı bir ünvan yox idi. Belə bir dövrdə gənclərin üzünə onların maraqlarını təmin edə biləcək qapıların açılması təbii ki, 30 ilin sonunda bu uğurların sadalanması ilə nəticələnəcəkdi. Bu qapı idmanın inkişafı, ölkəmizdə Olimpiya Hərəkatının başlanması idi. Bu, həm də ölkənin gələcək inkişafına istiqamətlənmiş siyasətin prioritetlərindən biri idi. Ölkəmizin başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman dövləti kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir".

Ötən illərin idman statistikasındakı uğurların nəticəsi də 30 il əvvəl başlanan Olimpiya Hərəkatının nəticələridir: gənclərin düzgün istiqamətləndirilməsi, onların asudə vaxtının səmərəli keçməsi, düzgün həyat tərzi, sağlam və vətənpərvər böyümələridir. Elə Qarabağımızı da işğaldan bu təfəkkürdə olan gənclərimiz xilas etdilər. Deməli, düzgün tərbiyə hərtərəfli qələbənin təminatıdır.

## 5 il əvvəl Bakıda, 5 il sonra Konyada

Əslində, dörd ildən bir keçirilməsi nəzərdə tutulan və İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrdən idmançıların iştirak etdiyi İslam Həmrəyliyi Oyunları son dəfə 5 il öncə Bakıda keçirilmişdi. 2017-ci il aprelin 5-də "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə həsr olunan mərasimində iştirak edən cənab İlham Əliyev demişdir: Əziz dostlar, İslam Həmrəyliyi Oyunlarının rəmzi sudur. Su həyat deməkdir. Təbiət və insan susuz yaşaya bilməz. Azərbaycan füsunkar təbiətə malik bir ölkədir. Gözəl göllərimiz, çaylarımız, bulaqlarımız, şəlalələrimiz, gözəl Xəzər dənizimiz bizim təbii sərvətimizdir. Bu gün Xəzərin sahilindən ölkəmizin müxtəlif istiqamətlərinə böyük səyahət başlayır. Su, əslində bir rəmzdir və Oyunların rəmzi məhz sudur. Hesab edirəm ki, bu seçim yüksək qiymətə layiq olmalıdır. Qoy, bizim yolumuz su kimi aydın, niyyətimiz su kimi təmiz olsun.

Yüksək səviyyədə təşkil olunan oyunlardan hər kəs ölkəsinə böyük təssüratlarla qayıtdı. Ölkəmiz üçün də IV İslam Həmrəyliyi Oyunları çox uğurla nəticələndi. Belə ki, Azərbaycan həmin oyunlarda 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazandı. Əslində ötən il keçirilməli olan V İslam Həmrəyliyi Oyunları pandemiya səbəbindən təxirə salındı və bu il Türkiyənin Konya şəhərində baş tutdu.

Ölkəmizin başçısı Konya şəhərində idmançılarımızla görüşü zamanı bu barədə demişdir: Bu dəfə bu Oyunlar Bakıdan sonra Konyada keçirilir, qardaş ölkədə keçirilir. Əminəm ki, siz özünüzü burada evinizdəki kimi hiss edirsiniz.

Əlbəttə ki, bu Oyunların Türkiyədə keçirilməsi bizim üçün əlavə imkanlar yaradır. Əlbəttə, biz çox şadıq ki, bu Oyunlar qardaş Türkiyədə keçirilir. Əminəm ki, bu Oyunlar həm idman bayramı, həm də İslam həmrəyliyi bayramı kimi yadda qalacaq. Beş il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında bizim komandamız çox gözəl nəticə göstərmişdir, komanda hesabında birinci olmuşdur. Eyni zamanda, Bakıdakı Oyunlar İslam həmrəyliyinin güclənməsinə təkan vermişdir. Çünki müsəlman ölkələrinin idmançıları bir müddət bir-biri ilə sıx təmasda olmuşlar. Əminəm ki, burada da siz yeni dostlar tapacaqsınız. Çünki bu Oyunlar həm idman yarışıdır, həm də ki, müsəlman ölkələri arasındakı birliyi, həmrəyliyi, dostluğu möhkəmləndirən amildir.

## Qalib ölkənin vətənpərvər idmançıları

İdman vətənpərvərlik hissinin təməlidir. Bunu həyatda dəfələrlə müşahidə etmişik. Elə 2020-ci ilin 44 günlük Vətən Müharibəsində də gənclərimizin idmanla məşğul olmasının uğurlu nəticələrini bir daha gördük. İdman onlara güc-qüvvə ilə yanaşı, həm də vətənpərvərlik ruhu bəxş edib.

"İdman təkcə fiziki sağlamlıq deyil, bu, həm də özünəinamdır, iş qabiliyyətidir, mənəvi vəziyyətdir", - deyən Prezident İlham Əliyevin bu dəyərli fikirlərinə istinadən demək olar ki, bəli, idman sağlamlıqla yanaşı, həm də özünəinamı, eyni zamanda qorxmazlığı, əyilməzliyi, igidliyi özündə ehtiva edir ki, bütün bunlar isə insanda vətənpərvərlik hissinin formalaşmasında böyük əhəmiyyətə malikdir.

Ölkəmizdə gənc nəsil bədən tərbiyəsi və idmanla kütləvi şəkildə məşğul olduğundan bu, son illər vətənpərvər gəncliyin də yetişməsində mühüm rol oynamışdır. Sağlam həyat tərzi, düzgün yaşam, cəmiyyət üçün gərəkli fərd olmaq insanda Vətəninə, torpağına, el-obasına sevgi, qədirbilənlik hissini formalaşdıran amillərdir. Bugünkü gəncliyin yüksək vətənpərvərlik keyfiyyətinə malik olmasında bu sahəyə göstərilən diqqət və qayğı öz sözünü deyib. Vətən müharibəsində gənclərimizin dünyaya nümunə olan vətənpərvərliyi dövlətimizin vətəndaşına göstərdiyi qayğının bəhrəsi kimi təzahür etdi. Statistikaya görə Vətən müharibəsində idman sahəsi üzrə 500 nəfər iştirak edib. Onlardan 54 nəfəri şəhidlik zirvəsinə yüksəlib. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərə 390 nəfər könüllü kimi qatılıb. Hərbi xidmətə çağırılanlar 33, hərbçi kimi iştirak edənlər isə 23 nəfər olub. Müharibə iştirakçılarından 67 nəfər yaralanıb.

Gənclərimizin torpaqlarımızın işğaldan azad olunması uğrunda göstərdikləri şücaət, onların fiziki gücü, son nəfəslərinədək rəşadətlə döyüşmələri, torpaq, Vətən uğrunda şəhid olmaları göstərdi ki, bu xalqın övladlarının Vətən sevgisi bütün sevgilərdən, istəklərdən öndədir. Hər bir yarışda Azərbaycan bayrağını qürurla dalğalandırmağa nail olan idmançılarımız üçrəngli bayrağımızı Qarabağda da dalğalandırmağa nail oldular.

Fevral ayında gənclərlə görüşündə Prezident İlham Əliyev onların Vətən müharibəsindəki şücaətindən söhbət açaraq demişdir: "Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan atəş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu deməkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən".

Bəli, Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında idmançılarımızın qalib ölkəmizi təmsil etmələri hər birimizdə qürur yaradır. Çünki biz illərlə torpaqlarımızın azad olmasını gözləmişik. İllərlə qaçqın, köçkün, didərginimizin acı taleyi bizim də acımız, göz yaşları bizim də göz yaşımız olub. Bu gün isə onlarla yanaşı, hər bir azərbaycanlının gözündən sevinc göz yaşları axır. Çünki biz Zəfər çalmış xalqıq. Bu Zəfər üçün Ali Baş Komandanımıza və milli ordumuza borcluyuq.

## İdmançılarımız Konyadan da uğurla qayıdacaqlar

Qalib ölkənin idmançıları söz yox ki, bu dəfə Konyadan da əliboş qayıtmayacaqlar. Çünki ölkəmizdə illərdir ki, idmanın inkişafına göstərilən diqqət və qayğı güclü, bacarıqlı, əzmli idmançılar ordusunun yetişməsi ilə nəticələnmişdir. Son illər idmançılarımız hansı ölkəyə yarışlara gedirlərsə, oradan qələbə ilə qayıdırlar. Onlara qələbə stimulunu verən səbəblərdən başlıcası isə Qarabağda qazandığımız qələbədir. Hələ torpaqlarımız işğal altında olanda erməni idmançılarını yarışlarda məğlub edən idmançılarımız onları döyüş meydanında da məğlubiyyətə uğratdıqdan sonra daha əzmli, daha güclü, daha həveslidirlər.

Prezident cənab İlham Əliyev: Onu da qeyd etməliyəm ki, ilk dəfə olaraq Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında qalib ölkəni təmsil edəcəklər. Bu, hamımız üçün böyük qürurverici hadisədir. Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu Oyunlarda iştirak edəcəyik. Döyüş meydanlarında əldə





edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək... Bir sözlə, əziz idmançılar, mən sizi ürəkdən salamlayıram, sizə uğurlar arzulamaq istəyirəm. Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız. Təbrik edirəm.

Avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən atletlər idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparırlar. Azərbaycanı bu oyunlarda 281 idmançı təmsil edir. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınayırlar.

Qarşıdakı günlərdə idmançılarımızın hər qələbəsində bayrağımız yüksəklərə qalxarkən qürur duyacağıq. Çünki bu bayraq yüksəklərdə dalğalanmaq üçün yaranıb. Bu bayraq dalğasında qələbə əzmini yaşamaq, yaşatmaq üçün yaranıb. Bu bayraq azad torpaqlarda, ərazi bütövlüyü təmin olunmuş ölkəmizdə dalğalanmaq üçün yaranıb. Bu dəfə də Konya şəhərində idmançılarımızın uğuru ilə dalğalanıb bizə xoşbəxtlik bəxş edəcəkdir...

***Mətanət MƏMMƏDOVA***



# 11-ci Dünya Oyunlarında Azərbaycan idmançılarının qələbəsi



## Dövlət başçısının Sərəncamı ilə ən yüksək nəticələr göstərmiş idmançılarımız və onların məşqçiləri mükafatlandırılıb

Dünyada idman ölkəsi kimi tanınan Azərbaycan istər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə böyük nüfuz qazanıb. Dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycan yüzlərlə beynəlxalq yarışlara ev sahibliyi etməklə yanaşı, beynəlxalq aləmdə təşkil olunun idman yarışlarında da iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb.

Bu günlərdə ABŞ-ın Birmingem şəhərində keçiilən 11-ci Dünya Oyunlarında Azərbaycan idmançıları də iştirak edib. 36 idman növü üzrə multi-idman oyunlarında 103 ölkənin nümayəndələri iştirak edib. Azərbaycanı idmançıları da Oyunlarda təmsil olunublar. Həmişə olduğu kimi, 11-ci Dünya Oyunlarında idmançılarımız uğur qazanıblar. "Amerika Birləşmiş Ştatlarının Birmingem şəhərində keçirilən XI Dünya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, birinci yeri tutmuş idmançı - 20000 manat, onun şəxsi məşqçisi - 10000 manat, həmin idman növü üzrə baş məşqçi - 10000 manat, üçüncü yeri tutmuş komanda - 20000 manat, komandanın hər bir məşqçisi - 5000 manat ayrılıb. Bu, bir daha sübut edir ki, Azərbaycan idman ölkəsidir.



Vurğulamaq yerinə düşər ki, ölkəmizdə idmançılar hərtərəfli qayğı ilə əhatə olunur ki, bu da beynəlxalq yarışlarda daha böyük uğurlar əldə etməyə imkan yaradır. Mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Bu da gəncləri idmana olan marağını daha da artırır və mövcud şərait onları daha da ruhlandırır. Son illərin idman nailiyyətlərinə nəzər yetirdikdə bir daha şahidi oluruq ki, Azərbaycan bütün beynəlxalq yarışlarda ən yüksək pillələrdə özünü təsdiq edib. Başqa sözlə, idmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. Birinci Avropa Oyunlarında Azərbaycan idmançıları 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmağa müvəffəq oldular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. İkinci Avropa Oyunlarında Azərbaycan millisinin 10-cu yerdə qərarlaşması idmanımızın növbəti uğuru oldu. 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu. Bütün bunlar Azərbaycanda idmana dövlət qayğısının müsbət nəticələrini və idmanın inkişaf səviyyəsini əyani göstərir.

Azərbaycan idman ölkəsi statusunu qoruyub saxlayır. Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümü idman yarışlarında idmançılarımızın qələbəsidir. Qalib Azərbaycanın qalib idmançıları bu gün müzəffər xalqı təmsil edən idmançı olaraq Azərbaycan bayrağının qaldırırlar.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qlenn Disyen:

## "Dünya Şərq və Qərb bloklarına bölünür, Qərbin iqtisadi hegemoniyası başa çatır"




**Cənub-Şərqi Norveç Universitetinin professoru Qlenn Disyen Rusiyanın ABŞ və Qərbi Avropa ilə qarşıdurmasının indiki mərhələsi fonunda yaranmış vəziyyətlə bağlı Caliber.Az-a fikirlərini bildirib. Professor qeyd edib ki, Qərb 1990-cı illərin əvvəllərində imzalanmış ümumavropa təhlükəsizlik sazişlərindən imtina edərək, Rusiyanın daxil olmayacağı yeni Avropa yaratmağı təklif edir.**

"Qərb Rusiya ilə əlaqələr səviyyəsini aşağı salmaqla öz təhlükəsizliyini həqiqətən gücləndirib. Hər şey Rusiyanın Qərb üçün təhlükə yarada biləcəyini iddia edən liberal beynəlmiləlçilik ideologiyasına uyğundur, NATO isə Rusiya üçün təhlükə kimi görünmür, çünki təşkilat sadəcə olaraq liberal dəyərləri təbliğ edir",- ekspert qeyd edir.

Iqtisadi hegemon, yəni Qərb öz nəzarəti altında olan beynəlxalq iqtisadi sistemə inamın artmasında maraqlıdır, lakin bu beynəlxalq sistem uğursuzluğa düçar olur- deyə norveçli professor əmindir.

Eyni zamanda, Disyenin fikrincə, bu gün nisbətən tənəzzülə uğrayan iqtisadi hegemon, çox güman ki, uğurlu rəqiblərini zəiflətmək üçün öz alətlərindən istifadə etməyə çalışacaq. "ABŞ və Aİ-nin dayanıqsız borcu dollar və avronun üstünlüklərini tədricən azaldıb, İran, Suriya, Venesuela və Əfqanıstanın aktivlərinin mənimsənilməsi isə bütün Qərb mərkəzli maliyyə sisteminin etibarını tamamilə sarsıdıb.

Rusiya və Çin kimi rəqiblərlə mübarizə nəqliyyat dəhlizlərinin militarizasiyasına gətirib çıxarır. Beynəlxalq Valyuta Fondunun Çinlə əməkdaşlıq etmək istəməməsi Pekini Asiya İnfrastruktur İnvestisiya Bankı kimi paralel institutlar yaratmağa sövq edib. ABŞ-ın keçmiş prezidenti Donald Trampın Bayden dövründə də davam edən Çinə qarşı iqtisadi müharibəsi amerikalı texnologiya və sənaye məhsulları təchizatçılarının etibarlılığına inamı zəiflətdi. Lakin Pekinin cavabı əhəmiyyətli texnoloji suverenliyin əldə edilməsi və tədarükün ABŞ-dan kənarda yenidən təşkili oldu", - politoloq vurğulayıb.

Bununla yanaşı, Disyen Rusiyaya qarşı tətbiq edilən irimiqyaslı sanksiyaların dünyanın qalan hissəsinə- enerji və ərzaq böhranları, inflyasiya və ümumi iqtisadi tənəzzül şəklində mənfi təsir göstərdiyinə diqqət çəkir.

"Rusiya Mərkəzi Bankının Qərbdəki vəsaitləri dondurulub və Aİ hətta bu əmanətlərin daimi müsadirəsini müzakirə edir. Eyni zamanda Qərbin Rusiya enerjisindən imtina etmək istəyi Rusiyanı bütün enerji ixracatını Şərqə yönləndirməyə vadar edir. Qərbin birtərəfli sanksiyalarına əməl etməyən ölkələr isə iqtisadi təzyiqlərlə üzləşirlər. Göründüyü kimi, növbəti sırada Çin dayanır, çünki Vaşinqton dünyanı iki bloka- demokratik (kollektiv Qərb) və avtoritar (Rusiya, Çin və onların müttəfiqləri) bölməsi ideyasını fəal şəkildə təbliğ edir",- ekspert deyir.

Bununla belə, Disyen əmindir ki, Rusiya indiyə qədər sənaye üçün təbii ehtiyatlar təmin etdiyi, müəyyən texnologiyalar və sənaye məhsulları idxal etdiyi Böyük Avropaya artıq can atmır. Böyük Avrasiya Tərəfdaşlığı artıq iqtisadi əlaqələrin şaxələndirilməsi vasitəsi deyil.

Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) gəlincə, həmsöhbətimizin fikrincə, təşkilat daha da inkişaf etmək üçün səylərini davam etdirir və yəqin ki, sentyabrda İranı yeni üzv kimi qəbul edəcək: "BRİKS ölkələri isə qlobal iqtisadiyyatda daha mühüm rol oynamaq istəyirlər, bunun üçün təşkilatı genişləndirirlər və artıq Argentina və İranı qəbul etməyə hazırdırlar. Dəməliyəm ki, Avrasiya İqtisadi İttifaqı (Aİİ) onların fonunda tədricən inkişaf edir".

Disyen, yaxın gələcəkdə Rusiya silahlarının Qərbə istiqamətlənəcəyini, Rusiyanın iqtisadi əlaqələrinin isə Şərqdə getdikcə güclənməyə başlayacağını deyib.

*Tərcümə - Elçin Bayramlı*

**Sahibkarlıq pul müqabilində, qazanc əldə etmək və biznesi genişləndirmək üçün həyata keçirilir. Bu fəaliyyətində əsas məqsəd mənfəət əldə etməkdir.**

Sosial sahibkarlıq nədir? Bu, əsas məqsədi sosial problemin həllinə kömək etmək olan bir işin yaradılmasıdır.

Sosial sahibkarlar biznesə başlayırlar, çünki onlar sosial problemlərin həlli yollarını tapmaq və öz biznes təşəbbüsləri vasitəsilə müsbət dəyişikliyə və ya sosial təsirə təsir etmək arzusuna malikdirlər.

Dünyadakı insanlar biznesdə davamlılığın və bir-birimizə və ətraf mühitə necə təsir etdiyinə dair etik həllərin zəruriliyi barədə getdikcə daha çox xəbərdar olurlar.

Sosial sahibkarlıq davamlılıq hərəkatı daha geniş yayıldıqca daha populyarlaşan bir həlldir.

Biznesin insanlara necə təsir etməsi üzərində çox gücü var. Davamlı biznes həlləri və biznesin inkişafı istiqamətində hərə-





kət etmək böyük məsuliyyətsiz korporasiyaların əlində pisləşən gələcək deyil, hamı üçün birgə sağlam gələcək yaratmaq üçün vacibdir.

Sosial sahibkarlar rifah yaratmaq üçün biznesin gücündən istifadə etmək üçün fəaliyyətdədirlər.

Kiçik biznesdən iri müəssisələrə qədər , texnologiyadan qidaya, modaya, səhiyyəyə, təhsilə, enerji səmərəliliyinə və s. kimi bütün sahələri əhatə edən geniş mövzudur.

Sosial Problem Nədir?

Sosial sahibkarlar hansı problemləri həll etməyə çalışırlar?

Sosial problem, cəmiyyətdəki insan qruplarına mənfi təsir göstərən hər şeydir, məsələn:

Bərabərsizlik.

Yoxsulluq.

İrqçilik.

Gender problemləri,

Təhsilə çıxışın olmaması,

Su və elektrik kimi resurslara çıxışın olmaması və, s.

Sosial problemlər iqlim dəyişikliyinə və ekoloji problemlərə qədər uzanır, çünki hər ikisi bir-birindən təsirləndikdə insan və ətraf mühit bir-birindən asılı münasibətdə qalır.

Sosial sahibkarlar sosial ehtiyacların ödənilməsində boşluğu doldurduqları üçün cəmiyyətin inkişafına dəyərli töhfələr verirlər.

Onlar bu kimi görünən dəyərə əsaslanan yanaşma vasitəsilə sənayedə təkamül yaratmağa kömək edir.

Hazırda Azərbaycanda sosial sahibkarlıq istiqamətində ilk addımlar atılmaqdadır. Bu sahədə sahibkarların üzləşdikləri bir sıra çətinliklər var. Bu çətinliklər qanunvericilikdə sosial sahibkarlıq haqqında tərifin olmaması, sosial sahibkarlıq subyektlərinin vergiyə cəlb edilməsi prosesi və ən əsası, hələ ki, cəmiyyətdə sosial sahibkarlıq haqqında təfəkkürün formalaşmamasıdır. Cəmiyyət sosial sahibkarlığı kifayət qədər vacib sahibkarlıq növü kimi qəbul etməlidir. Azərbaycanda sosial sahibkarlıq ekosisteminin inkişafında cəmiyyətin bu məsələyə münasibəti böyük rol oynayacaqdır.

**İqtisadçı ekspert Eldəniz Əmirov** SİA-ya açıqlamasında sosial sahibkarlığım inkişafında önəmli məsləələri qeyd edib.

Sosial Sahibkarlıq hazırda son dövrlərin trendi olaraq həm iqtisadiyyata həm sosial həyata siraət edilmiş bir formoldur. Ölkələrin iqtisadiyyatı nə qədər çox inkişaf edər-

ARAŞDIRMA

# Sosial Sahibkarlıq nədir və buna necə başlamaq olar?



sə,sosial sahibkarlıq məhfumu da bir o qədər inkişaf etmiş və iqtisadi sistem daxilində qərarlaşmış olar. Əvvələr bilirdik ki, sahibkarların bir mənalı olaraq əsas məqsədi maddi marağa söykənmək olmuşdur, yəni sahibkarlıq fəaliyyətin nəticəsi olaraq, müəyyən iqtisadi maraqlar çərçivəsində fəaliyyətinin göstərməsi idi . İqtisadiyyat inkişaf etdikcə sahibkarlığın yeni formaları o cümlədən sosial sahibkarlıq əmələ gəlmişdir. Dünyanın inkişaf etməkdə olan ölkələrində o cümlədən Azərbaycanda hələ də bu məfhumunu nə olduğunu təssüfki nə iqtisadi sahədə, nədə digər sahələrdə sahibkarlıq subyektlərində tam mənasından davranmamışdır. Hətta mən deyərdim ki, müəyyən sahibkarlar vardır ki, onlar sosial sahibkarlıq fəaliyyəti ilə məşğuldurlar, ama bununla yenə də insanlar özlərinin bu işlə məşğul olduğunu anlamırlar. Onlar sadəcə sahibkarlıq kimi baxırlar, amma sosial sahibkarlığı adi sahibkarlıqdan fərqləndirən incəliklər vardır. Bir neçə istiqamət var ki, bunlara dövlətin fəaliyyəti , ictimai birliklərin fəaliyyəti və sahibkarların fəaliyyəti və sosial sahibkarlıq fəaliyyəti daxildir. Bu məsələni adətən balıq tutmaq misalı ilə daha çox aydınlatmaq olur ,yəni fərqləri göstərmək olar.Məsələn sahibkarlar balığı göldən tutur və satır, dövlət bilavasitə ehtiyacı olanlara sadəcə balıq verir, ictimai fəaliyyətdə isə insanlara özləri tutmağı göstərilir. Amma sosial sahibkarlıqla nə balıq tutulub satılmır, nə hazır tutulmuş balıq verilmir, nədə balığın tutması öyrədilmir. Sosial sahibkarlıq daha geniş fəaliyyətdir. Həm insanlara tilov verir, həm balıq tutmağı öyrədir, həm ekoloji vəziyyəti ilə maraqlanır yəni daha kompleks yanaşılır. Həm mənfəət götürülür ,həm sosial həyat həm ekoloji durum götürülür.

Sosial sahibkarlığın inkişaf elətdirməsi üçün ilk növbədə liberal iqtisadi bir sistemi olmalıdır, sahibkarlıq fəaliyyətinə başlayan insanlara maddi cəhətlərini yuxarı səviyyələrini təmin olunandan sonra, artıq insanlarda sosial məsuliyyət formalaşır. Sahibkarlar öz maddi maraqlarını ən azı qismən təmin etdikdən sonra sosial məsələlərə önəm verməlidirlər .Böyük şirkətlərdə, iri koopresaiyalarda, holdinglərdə sosial sahibkarlıq fəaliyyəti bilavasitə KSM formada olur və buna bir çox layihələr daxildir. Amma sosial sahibkarlığın özü inkişaf etmiş ölkələrdə daha rahat formada fəaliyyət göstərir.

Uzun əsrlər boyu sosial problemlərin həlli, istər hökümət səviyyəsində, istərsə də yerli səviyyədə müstəsna olaraq hökumətin funksiyası hesab olunurdu. Zaman keçdikcə qeyri-hökumət təşkilatları dövlətin öhdəsindən gələ bilmədiyi(və ya istəmədiyi) məsələləri həll etmək üçün inkişaf etdi. Daha sonra isə, özəl sektor korporativ sosial məsuliyyət və xeyriyyəçilik layihələri vasitəsilə sosial, ekoloji və digər məsələlərin həllinə töhfə verməyə başladı və bu tendensiyanın ən son inkişafı sosial sahibkarlığın yaranmasına gətirib çıxardı.

1980-ci illərdə qlobal miqyasda "sosial sahibkarlıq" kimi tanınan yeni bir hərəkat meydana çıxdı. Hərəkata innovativ, davamlı və genişlənə bilən biznes modelləri vasitəsilə sosial problemlərin həllinə həsr edən yeni nəsil sahibkarlar rəhbərlik edirdi.

Sosial sahibkarlığın tərifi hər ədəbiyyata görə fərqlidir, ancaq onları hamısını ümumiləşdirsək, ortaya aşağıdakı tərif çıxır;

"Sosial sahibkarlıq cəmiyyətdə mövcud olan sosial və ətraf mühit problemlərini biznes və sahibkarlıq prinsiplərini tətbiq etməklə həll edərək davamlı sosial dəyişikliyə nail olmaqdan ibarətdir."

**Bu sözləri gənc sosial sahibkar Etibar Xıdırov** qeyd edib. Müsahibimiz Sosial sahibkarlıq modeli əsasında fəaliyyət göstərən



ölkənin ilk Kraudfandinq platforması Toxum.org-da layihələr üzrə menecer kimi başlamış və 2022-ci ildə ölkədə olan sosial və sosial sahibkarlıq layihələrinin resurs ehtiyacını qarşılamaqda onlara dəstək olacaq "Dəstəkçi" (Destekchi.org) Sosial Sahibkarlıq Platformasını qurub və hal-hazırda "Dəstəkçi" Sosial Sahibkarlıq Platformasının təsisçisi olaraq fəaliyyətini davam etdirir.

Sosial sahibkarlığın cəmiyyətə dövlətə və faydası .

*Ardı Səh. 12*

# Sosial Sahibkarlıq nədir və buna necə başlamaq olar

Əvvəli səh.11

Sosial Sahibkarlığa necə və niyə ehtiyacımız var?

Hökumət, dövlət və özəl sektor tərəfindən qarşılanmayan ehtiyaclar (mal və xidmətlər) arasındakı boşluğu doldurmaq;

Cəmiyyətdən təcrid olunmuş qrupların (əlillər, yoxsullar, dullar, məhkum olmuş şəxslər) cəmiyyətə adaptasiyasını təmin etmək üçün;

Yoxsulluğun, işsizliyin, marjinallaşmanın və həssaslığın azaldılmasına dəstək;

Davamlı artım və inkişafı təmin etmək üçün;

Sosial Bizneslərin Faydaları:

Sosial missiyanı yerinə yetirir və icmalarda müsbət fərq yaradır.

Fərdlər və təşkilatlar üçün yeni gəlir axınını təmin edir.

İcmaları artan gəlir, yeni iş yerlərinin yaradılması və məşğulluq imkanları ilə təmin edir.

Bütün mövcud resursların(torpaq, əmək, kapital, vaxt) məhsuldar istifadəsini təmin edir.

Fərdlərə öz istedadlarını, bilik və bacarıqlarını sosial sahibkarlıq müəssisələrində istifadə etməyə imkan verir.

Azərbaycan kontekstində sosial sahibkarlıq yeni anlayışdır və yaxşı tədqiq edilməmişdir. Ölkədə sahibkarlıq və qeyri-kommersiya fəaliyyətini tənzimləyən müvafiq qanunvericilik mövcuddur, lakin mövcud qanunvericilik sosial sahibkarlıq müəssisələrini ayrıca kateqoriya kimi tanımır. Beləliklə, dövlət siyasəti və təsisatlar sosial sahibkarlıq ruhunda olduğu kimi birlikdə deyil, ayrı-ayrılıqda biznes və sosial inkişafı dəstəkləməyə meyllidirlər. Qanunvericilik olmadığına görə sosial sahibkarlıq barədə vahid bir tərif yoxdur, sosial sahibkarlıq layihələrinə hər hansı vergi güzəştləri, dəstəkləyici proqramlar mövcud deyil. Digər məsələ cəmiyyətdə az bir qisminin sosial sahibkarlıq anlayışı ilə tanış olması göstərə bilərik. Bundan əlavə sosial sahibkarlıq barədə yerli ildə araşdırmaq öyrənmək üçün resurs və materialların olmamasını misal gətirmək olar.

Mövcud tədqiqatlar göstərir ki, Azərbaycanda sosial sahibkarlıq təşəbbüslərinin sayı məhduddur, lakin Sosisal sahibkarllq konsepsiyasını izah etmək və başa düşmək üçün səylər artmaqdadır. Bir sıra təşkilatlar Azərbaycanda sosial sahibkarlığın təşviqi yolları ilə bağlı müzakirələrə başlamaq üçün maarifləndirmə tədbirləri keçirmişlər ki, bu da öz növbəsində Vətəndaş Cəmiyyəti Təşkilatlarının Sosial Sahibkarlıq Müəssisələrinə çevrilməsinə marağın artmasına səbəb olmuşdur. Sosial müəssisənin tərifi ilə bağlı konsensusun olmamasına baxmayaraq, ümumi bir anlayış mövcuddur ki, Sosial sahibkarlıq müəssisələrin inkişafı daha da təşviq edilməlidir və Sosial sahibkarlıq müəssisələrin təşviqi üçün tövsiyə olunan tədbirlər kompleksinə hüquqi dəyişikliklərin tətbiqi, xüsusi vergi rejimi, Sosial sahibkarlıq müəssisələrin üçün səmərəlilik standartlarının müəyyən edilməsi daxildir. , SSM-lərin inkişafının milli proqramlara və yol xəritələrinə məqsəd kimi daxil edilməsi, SSM-lər haqqında məlumatlılığın artırılması, bacarıqların artırılması proqramları, maliyyəyə çıxış və şəbəkələşməyə dəstək kimi təklifləri irəli sürə bilərik.

**Azərbaycanda Sosial sahibkarlığa başlayan ilk xanımlardan biri də Sara Rəcəblidir.**



2018-ci ildə Azərbaycandan ilk sosial sahibkar kimi "Yunus & Youth" sosial sahibkarlıq proqramında iştirak etmiş, proqramın təqaüdünü qazanaraq Niderland Krallığının Haaqa şəhərində keçirilən "One Young World 2018" zirvəsində, Sumqayıtda USAİD-in "Qadın İştirakçılığı" proqramı çərçivəsində "Biznes və Liderlik" adlı təlimlərdə, Erasmus+ proqramı çərçivəsində Latviyada, İsveçrədə təşkil olunan UNCTAD Gənclər Forumunda iştirak etmiş, Rusiya Federasiyasının Tyumen şəhərində keçirilən "Kulturitsa" adlı tədbirdə sosial sahibkarlıq üzrə spiker-ekspert kimi çıxış etmişdir.

Sahibkarlığın yaradılmasında və həyata keçirilməsində bir neçə əsas detal var. Birincisi biznesin təsviri, yeni qurulma sistemi. Bu qurulandan sonra işin içərisində olan satış prosesi, tədarük planın olması, maya dəyərinin hesablanması, sahibkarlıq üçün lazım olan məhsul və ya xidmətlərin doğru müəyyən edib bazarda yerləşdirilməsi kimi incə detallar var ki, bu sahibkarlığın təşkilində önəmli rol oynayır.

İdarə edilməsi isə təşkilindən biraz fərqlənə bilir. Biraz ilkin dönəmlərdə özümüz idarə etmək üçün, təbii ki burada söhbət mikro sahibkarlıqdan gedir. Hansı ki, hələ çox adam yoxdur və hər şey öz üzərimizdədir. İdarə etmədə ən mühüm detal bazarda Beynəlxalq sistemdən əlavə Azərbaycan sisteminə də diqqət yetirməkdir. Hər beynəlxalq məhsul Azərbaycanda satılmaya bilər . Həmçinin insanların davranışını, psixologiyasını, ünsiyyətini, onların alıcılıq qabiləyətlərin nəzərə alınması əsas amillərdəndir.

Ən böyük çətinlik odur ki, insanlar düşünürlər ki, pul olsa nəsə etmək olar.Amma nəsə eləyib sonra pul axtarmağı o qədər adam düşünmür.

Bu insanların sosial psixoloji tərəfləri ilə bağlı olan çatışmayan bir özelliyidir. İşin digər tərəfinə gəldikdə isə ölkədə balans pozulub, tarazlıq yoxdur. Niyə yoxdu? Çünki ya aşağı olur, ya yuxarı, ortalamaları tutmaq olmur. Azərbaycan dövləti bu məsələ üzərinə düşüb Kiçik və Orta Bizneslərə dəstək olmalıdır.

***Havar Şəfiyeva***

# "Ukrayna tərəfi yeni hücumlara başlaya bilər"

"Hazırda Ukraynada ləngidilmiş hər bir müharibə üçün xas olan əlamətlər özünü göstərməkdədir. Yəni, istər Ukrayna, istərsə də Rusiya tərəf olduqları yerdə möhkəmlənməyə çox diqqət edirlər. Bundan sonra kimin necə davranacağı isə artıq bu gün görsənməkdədir. Rusiya və Ukrayna möhkəmlənib addımlar atsalar da, perspektivdə kimin növbəti hücum addımı atacağını gələcək zaman göstərəcək". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.



Onun sözlərinə görə, hazırki şəraitdə beynəlxalq dəstək, beynəlxalq güclərin etdiyi müdafiə və özünün nümayiş etdirdiyi hazırlıq dərəcəsi möhkəmləmə mövqeyində Ukrayna tərəfinin daha hazırlıqlı olmasına əsas verir: "Bu mərhələdən sonra Ukrayna tərəfinin yeni miqyaslı hücumlara keçəcəyi və özünün hesab etdiyi torpaqları azad etmək üçün daha qətiyyətli addımlar atacağı gözlənilir.

Dünyanın və beynəlxalq təşkilatların, xüsusilə də Avropa Birliyi, NATO və ABŞ-ın Ukraynada müharibəni bitirmək kimi ovqatı ortada görsənmir. Məlum səbəblərə görə müharibəni tez bitirməkdə Rusiya daha çox maraqlıdır. Amma daha çox obyektiv və Rusiyadan asılı olmayan səbəblərə görə müharibəni bitirmək onların əlində deyil".

Aydın Quliyev sözlərinə belə davam edib: "Getdikcə həm daxili iqtisadi vəziyyət, həm də dünyada mövqelər baxımından Rusiyanın bu müharibəni gələcəkdə hücum müharibəsinə çevirmək imkanlarının məhdudluğu özünü göstərir. Ona görə də müəyyən bir müddətdən sonra Ukraynada vəziyyətin necə olacağını aydın və qəti inamla proqnoz etmək çətindir. Amma daha çox bu ona bənzəyir ki, Ukrayna tərəfi yeni hücumlara başlaya bilər.

Hazırda dünya dövlətləri Ukrayna və Rusiyanı barışdırmaq əvəzinə, müharibədən sonra müharibə ilə əlaqəli digər problemlərin həlli ilə məşğuldurlar. Dünya ölkələrini ən çox məşğul edən Ukraynanın ərzağının və ilk növbədə taxılın ixracı imkanlarının açılması, eləcə də Rusiya ərzağının dünya bazarlarına Qara dəniz limanları vasitəsilə ixcracına fasiləsiz şərait yaratmaq məsələsidir".

***Ayşən Vəli***

# "Azərbaycan ordusuna dəstək hər bir kəsin borcudur"



"Azərbaycan ordusu Azərbaycan xalqının qürurunu və şərəfini qoruyan yeganə orqandır. Ona görə də, hər birimiz ordumuz haqqında danışarkən mütləq ehtiyatlı və hörmətli davranmalıyıq". Bunu "Səs" qəzetinə açıqlamasında Ədalət Partiyasının Aparat rəhbəri Mütəllim Rəhimli deyib.

M.Rəhimli onu da bildirdi ki, 44 günlük Vətən müharibəsində Azərbaycan ordusu Azərbaycan xalqının illərdi sınmış qürurunu özünə qaytara bildi və torpaqlarımızı işğaldan azad etdi: "Azərbaycan ordusuna dəstək hər bir kəsin borcudur. Nəzərə alınmalıdır ki, Azərbaycanın müstəqilliyinin qorunmasında, ərazi bütövlüyünün təmin olunmasında Azərbaycan ordusunun əməyi misilsizdir. Bu baxımdan da, hansı mövqedə olmasından asılı olmayaraq ordu haqqında mütləq Azərbaycan dövlətçiliyi aspektindən məsələyə yanaşmaq lazımdır. Azərbaycan dövləti və ordusu əbədi olaraq qalır. Ordumuzun da çox şərəfli bir missiyası var və bu missiyanı da uğurla daşımaqdadır. Azərbaycan xalqı ilə ordusu birləşdikdə bu gücün qarşısında heç bir işğalçı davam gətirə bilməz. Biz məsələyə də məhz bu aspektdən yanaşmalıyıq".

***Gülyana***

# Azərbaycan-Moldova münasibətləri hansı səviyyədədir?

"Azərbaycan-Moldova münasibətləri hər iki dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. Keçmiş Sovet İttifaqı dövründə də Azərbaycan və Moldova dövlətləri arasında olan münasibətlər daha çox müsbət çalarlarla yadda qalıb". Bu fikirləri SİA-ya açıqlamasında QAFSAM-ın sədri Araz Aslanlı bildirib.

Sədrin sözlərinə görə, hər iki dövlət öz ərazi bütövlüyünü tamamlamaq üçün bir sıra təhdidlərə məruz qalıblar: "Sovet impersiyası dağıldıqdan sonra da baş verən ərazi bütövlüyü ilə bağlı proseslər bu iki dövləti bir-birinə daha yaxın etdi. İki dövlətində təmsil olunduğu Gürcüstan, Azərbaycan, Moldova, Ukrayna ittifaqına Özbəkistanda qoşulmuşdu. Hətta bu model keçmiş Sovet İttifaqı ərazisində yaranmış dövlətlərin ən uğurlu modeli kimi qiymətləndirilə bilər. Bildiyiniz kimi bir çox modellər mövcuddur.Lakin bu birlik həqiqi idi və üzv dövlətlərin maraqlarına töhvə verən bir sistem idi. GUYAM modeli yalnız siyasi istiqamətdə deyil müxtəlif platformaları əhatə edirdi. GUYAM üzvləri keçmiş SSRİ ərazisində yaranmış ölkələri idi ki, bir-birlərini vacib məqamlarda dəstəkləyirdilər. Bu hal təbii ki, Azərbaycan üçündə çox önəmli idi. İki tərəfli əməkdaşlığa mane olan amil corafi baxımdan dövlətlərin bir-biri ilə qonşu olmamasıdır. Bəlkə də Moldova ilə daha rahat bir əlaqə olsa idi bu iki dövlət arasında olan münasibətlər daha da inkişaf edə bilərdi. Azərbaycan-Moldova münasibətləri eyni zamanda strateji baxımdan da mühim əhəmiyyət kəsb edir".

***Banuçiçək Hüseynli***

# Təkrar biliyin anasıdır...



Mətanət MƏMMƏDOVA

**Elə bunu əldə rəhbər tutan Azərbaycan televiziya məkanı hər il yayda olduğu kimi, bu yay da televiziya kanallarında təkrar film, serial, köhnə şou və konsert proqramları, verilişlərlə efir vaxtını doldurur. Əslində bu, təzə xəbər deyil, qeyd etdiyim kimi hər ilki ənənədir.**

Ötən şənbə bir qədər televiziya izləmək qərarına gəldim. İdarəetmə pultunu götürdüm əlimə, bir kanal, iki kanal, ümumilikdə bir neçə televiziya kanalına baxmalı oldum. Ona görə baxmalı oldum ki, birinə baxdım, gördüm təkrar veriliş, o birinə çevirdim, gördüm yenə təkrar veriliş, məcbur qalıb o birinə çevirdim, gördüm yenə təkrar. Qayıtdım birinci rastlaşdığım təkrara. Təsadüfə bax ki, həmin verilişə vaxtilə baxmışdım. Baxmasaydım, bu dəfə baxanda yenə mənə yeni gələ bilərdi. Yox, ekranın bir küncündə təkrar sözü yazılmışdı. Sadəcə baxmamış olsaydım o zaman maraqlı gələrdi, təkrar olsa da.

Təəssüf doğuran hal budur ki, verilişdə artıq dünyada olmayan insanla bağlı hissə də var idi. Həm də bu hissə onun sağlığında şou aləmində qalmaqala səbəb olan məsələlərdən idi. Düşündüm ki, bir neçə il öncə böyük səs-küy yaradan, aylarla davam edən bir prosesi yenidən təkrar olaraq efirdə yayımlamaq görəsən nə dərəcədə düzdür? O hissəni kəsmək də olardı. Lakin yəqin kiminsə ya yadına düşməyib, ya da diqqətini cəlb etməyib.

O biri kanalların birində kənd həyatından təkrar veriliş gedirdi, o birində isə serial təkrarı vardı. Bir qədər də kənd həyatından olan verilişə baxdım. Sonra o biri kanala keçidim, serialın bir parçasına baxdım, gördüm yox, baxmaq mümkün deyil, yavaşca televizoru söndürdüm.

Yuxarıda da qeyd etdiyim kimi, hər il yay fəslinin iki ayı-iyul və avqust aylarında televiziya kanalları beləcə "təkrar biliyin anasıdır" deyiminə riayət edirlər. Hələ məlum televiziya kanalında şənbə-bazar günlərinin Hindistan günləri elan olunduğunun da şahidi olmuşuq. Hind filmlərinə o qədər baxmışdıq ki, hər birini əzbər bilirdik. Şou proqramlar da var həmin kanalda ki, yay, qış, yaz payız təkrar yayım vaxtı var. Bax ki, baxasan. Bez ki, bezəsən.

Anlayırıq, yay fəslidir, məzuniyyətə, istirahətə gedən var. Yəqin bu təkrarlar da televiziya kanallarında yay fəslində işçi sayının az olmasından, yeni verilişlərin çəkilməməsindən irəli gəlir. Maraqlıdır, ona görə maraqlıdır ki, tamaşaçı nə etsin ki, siz məzuniyyətə, istirahətə getmisiniz. O, baxmağa veriliş axtarır. Tamaşaçı da sizə qoşulub istirahətə getməyib ki... Oturub evində, televizorun idarəetmə pultunu da alıb əlinə, telekanallarda gəzir o başa, gəlir bu başa. Baxmağa, əylənməyə, vaxtını keçirməyə, istirahətini səmərəli qurmağa çalışır. Yayın istisindən evdən bayıra çıxa bilməyib axşamı gözləyir ki, hava sərinləsin, küçəyə çıxsın. Bütün bu vaxt ərzində isə televizora baxmasın, nə eləsin? Baxıb da təkrar, təkrar, təkrar görəndə bəs nə etsin? Bunların əksəriyyətinə baxıb axı...

Yaxşı, deyirsiniz ki, təkrar biliyin anasıdır. Onda bütün tamaşaçılar adından xahiş edirəm ki, təkrar verilişləri, şou proqramları, film və serialları təqdim edəndə bizə bir az "yazığınız" gəlsin. O bəzi seriallar var ey, baxanda adamı hələ qışda tər basırdı, onların bu yayın istisində təkrarını yayımlayıb bizi suda boğmayın axı. Baxmaqdan gözlərimiz kor olan o şou proqramlara da bir əl gəzdirin. Təkrar olar bir, iki, üç dəfə. Ta daimi yox.

Digər verilişlər də var ki, onların hansı ildə çəkildiyini, hansı hadisələrin yeniləndiyini, kimlərin həyatda olub-olmadığına bir nəzər salın. Bəzən bir verilişdə baxıb görürsən, burada bir məsələdən bəhs olunur, hansı ki, o məsələ bir neçə ildir, öz həllini tapıb. Təkrar verilişdə isə köhnə məsələ müzakirə olunur. Qalırsan çaş-baş. Deyirsən axı dünən ayrı söz deyirdilər, görəsən yalanmış?

Dünyasını dəyişənlərə hörmət etmək isə hər birimizin borcudur. Unutmayaq ki, sabah hər birimiz haqq dünyasına yolçu olacağıq.

"Təkrar biliyin anasıdır", - deyib tamaşaçının yaddaşını möhkəmləndirmək fikrində olan əziz telekanal əməkdaşları, indi ki, bizə təkrarları təqdim edirsiniz, bu halda bizim köhnə yerli filmlərimizi yayımlayın bir-birinin ardınca. Çünki onlara hər dəfə təkrar baxanda da yenə nə isə öyrənirik. Baxaq və gözləyək, görək bu cür filmlərin yenisi nə vaxt efirlərimizi bəzəyəcək... Nə qədər ki, belə filmlər ərsəyə gələ bilmir, "təkrar biliyin anasıdır" deyək, lakin heç olmasa bu gözəl filmləri təkrar-təkrar seyr edək. Digər təkrarlara isə, vallah, ehtiyac yoxdur...

# Azərbaycan-Rusiya-İran görüşü nə ilə nəticələnəcək?



**POLİTOLOQ AÇIQLADI**

**"Görüşün vaxtı hələ açıqlanmasa da, gündəlikdə belə bir görüşün keçirilməsi nəzərdə tutulub. İlkin məlumatlara görə, keçiriləcək görüşdə əsas məsələ Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin müzakirəsi olacaq. Daha konkret desək, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi marşrutlarının şaxələndirilməsi, eləcə də tranzit və gömrük məsələləri ilə bağlı müzakirələr aparılacaq". Bu fikirlər S?A-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.**

Politoloq məlumat üçün bildirib ki, "Şimal-Cənub" nəqliyyat dəhlizinin təməli 2000-ci il 12 sentyabr tarixində Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası Sazişin əsasında qoyulub: "Azərbaycan bu Sazişə 2005-ci ildə qoşulub. Ümumilikdə 13 ölkə sözügedən Sazişi ratifikasiya edib ki, bunlar da Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman, Rusiya, Tacikistan, Ukrayna və Türkiyə dövlətləridir.

Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdan ibarətdir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi Avropa-Cənubi Asiya-Yaxın Şərq arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcəkdir.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq artıq xeyli işlər də görülüb. Belə ki, Astaraçay üzərindəki körpüyə qədər 8,3 km yeni yol tikilib, Astaraçay üzərində dəmiryol körpüsü inşa olunub, Astaraçay üzərində dəmiryol körpüsündən İran İslam Respublikası ərazisində tikilmiş yük terminalına qədər 1,4 km yol çəkilib. Azərbaycan tərəfi Astarada (İran) 35 hektar ərazidə dəmir yolu stansiyasının tikintisi və yüklərin boşaldılması üçün terminalların inşasını davam edir.

Qeyd edim ki, Astara (Azərbaycan) - Astara (İran) dəmir yolu xətti Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin əsasını təşkil edir. Nəqliyyat dəhlizi yaxın vaxtlarda İran, Azərbaycan və Rusiyanın dəmir yolu şəbəkələrini birləşdirəcək. Astaraçay çayı üzərindən keçən körpü də Şimal-Cənub dəhlizinə birləşdiriləcək.

Şimal-Cənub nəqliyyat dəhlizi Avropa bazarı üçün də çox mühüm əhəmiyyət kəsb edəcəkdir və gələcəkdə köhnə qitə ilə Azərbaycan arasında siyasi və iqtisadi əlaqələrin daha da irəli getməsi üçün zəmin yaradacaqdır. Təbii ki layihənin ən önəmli məsələlərindən biri də gəlir məsələsidir. Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılmışdır. Bu sahədə uğurlu fəaliyyətin nəticəsində qeyri-neft sektoru üzrə yükdaşımalarda 65% artım olub. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi vasitəsiylə ölkəmizə daxil olan yüklərin təxminən 85% tranzit olaraq digər ölkələrə aparılır. Nəticə etibariylə ölkəmizdən nə qədər çox yük daşınırsa bu da ölkəmizin gəlirlərini artırır. Digər tərəfdən bu layihə ölkəmizin ixrac imkanlarını da artırır və xüsusən də qeyri-neft sektorunda ixrac imkanlarımızı genişləndirir.

Digər çox mühüm məqam budur ki, Rusiya və Türkiyə ölkəmizin ən çox qeyri-neft məhsulları ixrac etdiyi ölkələrdir. Lakin Azərbaycan bu layihələr nəticəsində yeni bazarlara çıxış imkanları əldə etdi. Belə bir nəticəyə gəlmək olar ki, Şimal-Cənub nəqliyyat dəhlizi ölkəmiz üçün geosiyasi və geoiqtisadi baxımdan çox vacibdir. Azərbaycanın strateji əhəmiyyətinin artmasında bu layihənin xüsusi əhəmiyyəti var".

*Banuçiçək Hüseynli*

# "Təxribatlar genişmiqyaslı eskalasiya ilə nəticələnə bilər"



"Son dövrlər Azərbaycan və Ermənistan arasında gərginlik yaşanır. Bütün dünyada dondurulmuş münaqişələrin canlanması, eskalasiya hallarının güclənməsi və mübahisələrin konfrantasiya halına keçməsi fonunda Azərbaycan və Ermənistan arasında yeni gərginliyin yaranması xoşagəlməz hal kimi qiymətləndirilir və təhlükəsizlik amilinə böyük diqqət ayrılmasını tələb edir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov deyib.

Onun sözlərinə görə, Azərbaycan Ermənistan sərhədində, eləcə də Azərbaycan ərazisinə müvəqqəti olaraq yerləşdirilmiş sülhməramlıların olduğu zonadan təhlükəsizliyin pozulması halları müşahidə olunur, bölmələrimiz atəşə məruz qalır və atəşkəs rejimi Ermənistan tərəfindən pozulur: "Bu xüsusda sülhməramlıların da üzərinə böyük vəzifə düşür. 2020-ci ilin 10 noyabr tarixində Azərbaycan ərazisində yerləşdirilən sülhməramlılarla paralel olaraq Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri regionu tərk etməli idilər. Üçtərəfli birgə bəyanatın imzalanmasından il yarım vaxt keçməsinə baxmayaraq, hələ də Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri regionu tərk etməyiblər və üçtərəfli birgə bəyanatın 4-cü maddəsi icra olunmamış qalır. Sülhməramlılar bu işdə fəal iştirak edə bilərlər. Lakin biz bir sıra neqativ halları da görürük. Separatçılar səngər qazırlar, mühəndis istehkam qrupları inşa edirlər və bütün bu proseslərdə sülhməramlıların gözü qarşısında baş verir. Bu, tamamilə qəbul olunan bir hal deyil və sülhməramlıların fəaliyyətinə kölgə salır".

İ.Hüseynov onu da bildirdi ki, Azərbaycan tərəfi dəfələrlə sülhməramlıların mandatının müəyyən edilməsi ilə bağlı çağırışlarla çıxış etsə də, bu çağırışlara ya cavab verilməyib, ya da bizi qane etməyən hər hansısa açıqlamalar müşahidə olunub: "Azərbaycan öz milli maraqlarından çıxış edərək xalqın iradəsini ifadə edərək regional təhlükəsizlik tədbirlərinin həyata keçirilməsində maraqlıdır. Azərbaycanla Rusiya arasında keçirilmiş birbaşa dialoq sayəsində təhlükəsizlik amili gücləndirilməlidir və Rusiya ilə mehriban qonşuluq siyasətinin eləcə də müttəfiqlik qarşılıq fəaliyyəti haqqında bəyannamənin tələblərindən irəli gələrək sülhməramlıların fəaliyyəti tənzimlənməlidir və bu sahəyə böyük diqqət ayrılmalıdır. Çünki hər hansısa hərbi siyasi təxribatın baş verməsi genişmiqyaslı eskalasiya ilə nəticələnə bilər və burada bütün məsuliyyət Ermənistanın hərbi siyasi rəhbərliyinin üzərinə düşəcəkdir. Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsi, eləcə də müharibədən sonrakı dövrdə baş verən uğurlu əməliyyatlar və sonuncu "Qisas" antiterror əməliyyatı onu deməyə əsas verir ki, Azərbaycanın dünya standartlarına cavab verən peşəkar müasir silahlarla silahlanmış ordusu vardır. Bir sözlə, ordumuz istənilən çətin tapşırığın öhdəsindən gəlməyə layiqdir. Ona görə də, arzu olunandır ki, bütün məsələlər diplomatik-siyasi yollarla, dinc vasitələrlə öz həllini tapsın və beynəlxalq hüquqdan irəli gələn vəzifələri sülhməramlılar həyata keçirsinlər. Əks halda, hər hansısa neqativ tendensiya baş verəcəksə, bu, təhlükəsizlik aktekturasına mənfi təsir göstərəcək və bununla da genişmiqyaslı müharibə baş verə bilər. Bu halların baş verməməsi üçün sülhməramlılar da öz məsuliyyətini anlamalı və neqativ halların qarşısını qətiyyətlə almalıdır".

*Gülyana*

# Kişilər, yoxsa qadınlar ağzı bütövdür?

**Əgər sirdaşınız varsa, çox şanslısınız. Etibar edə biləcəyiniz bir dost sirrinizi yaxşı qoruya bilər. Sirlərin deyildiyi şəxs olmaq hər zaman sizə güc və müdriklik verir. Bu vəziyyətdə dostunuz və ya dostlarınız həm sizin ağıllı olduğunuza inanır, həm də sizə güvənir. Sirri sizə söyləmək hörmətinizi artırır. Bu sizin etibarlı şəxs olduğunuzu göstərir.**

Ümumiyyətlə, sirr saxlamaq çox çətindir. Bu, hər adama nəsib olacaq bir duyğu deyil. Sirrimizi verdiyimiz şəxs də bizim üçün çox dəyərli olur. Yəni, hər yoldan keçənə sirr verilməz, verilməməlidir. Bunun üçün necə deyərlər, "Yüz ölçüb, bir biçmək lazımdır".

Sirr çox ağır yükdür və böyük məsuliyyətdir. Bunu qorumağı yalnız sadiq və güvənilir insanlar bacarır. **Həzrət Peyğəmbər (s) buyurur: "O zaman ki, bir şəxs (sizə) söz deyər və sonra ətrafına baxar, o söz əmanət və sirdir". (Gərək onu qorumaq üçün çalışasan).**

İslam dinində əmanətin bir çox növü vardır. İnsanların sirrini saxlamaq da əmanətin bir növüdür. Bu mövzu dinimizdə o qədər əhəmiyyətlidir ki, sirri ifşa etmək kəbirə günahlardan hesab olunur. (Həvzəh)

Bu sözün sirr olmasını isbat etmək lazım deyildir. Bəlkə əgər bu sözü deyən şəxs onu yavaş səslə deyər və sonra ətrafına nəzər salarsa, deməli, bu söz sirdir. Ona görə də onun ifşa olmasına imkan verməmək olmaz və onu əmanət kimi qorumaq - mömінin borcudur.

Güvən heç bir narahatlıq, şübhə və tərəddüd etmədən kiməsə bağlanıb ona inanmaq, özünü ona təslim edə bilməkdir. Güvəndiyiniz insana açıq şəkildə özünüzü təqdim edir, hisslərinizi və düşüncələrinizi paylaşırsınız, çünki güvən olan yerdə dürüstlük, yaxınlıq, dəstək və ən əsası bağlılıq var.

Güvən qazanmağın yollarını bilmək üçün ilk şey ünsiyyətdir. Güvən qazanmaq üçün açıq fikirli olmaq, başqasının fikrinə önəm vermək və yaxşı dinləyici olmaq vacibdir. Eynilə, şəffaf olmaq və həqiqəti gizlətməmək etibar qazanmağın bir yoludur.

Aparılan araşdırma qadınlar üçün maraqlı bir nəticə ortaya çıxarıb. Alimlərin illərlə apardığı araşdırmalar nəticəsində ortaya çıxan həqiqət hər kəsi təəccübləndirib. 18-65 yaş arası 3 min qadın üzərində aparılan araşdırmada hər on qadından dördünün sirr saxlaya bilmədiyi üzə çıxıb. Qadınlar sirr saxlamaqda həqiqətən uğursuz olurlar. Bir qadının saxlaya biləcəyi sirrin ömrü cəmi 47 saatdır. Tədqiqatçılar qadınların bir sirri öyrənən kimi ona necə həvəslə danışdıqlarını üzə çıxarıblar.

İngiltərədə aparılan araşdırmalara görə, qadınlar dedi-qoduya gəldikdə olduqca maraqlı olurlar. O qədər ki, eşitdikləri sirri maksimum 47 saat saxlaya bilirlər. Beləliklə, iki gün belə saxlaya bilmirlər.

"Sirr vermə dostuna, dostunun da dostu var" kimi atalar sözləri və deyimlərimiz bizə yaşadığımız hadisələri, sirləri rahatlıqla başqasına söyləyə biləcəyimizi bildirir. Qadınların sirr saxlaya bilməməsi İngiltərədəki "Wines of Chile" araşdırma komissiyası tərəfindən 18-65 yaş arası üç min qadın üzərində aparılan araşdırmada sübuta yetirilib.

Əksər qadınlar ona əmanət edilən sirri sevgili, ər, analarına və dostlarına deyirlər. 40 faiz sirr saxlamağın onlar üçün çətin olduğunu etiraf edir, dostu ilə bağlı sirri o adamı tanımayan tamamilə fərqli dostlar qrupundan olan yaxın dostuna dediklərini etiraf edir və bunun məqbul olduğuna inanırlar.

Qızlar sirlərini əsasən üzbəüz, mesajla və ya telefonla danışaraq paylaşırlar. 2/3 sirrini başqasına ötürəndə rahatlaşır. Bəzilər vaxt keçdikdən sonra özlərini günahkar hiss edir. Bəs, paylaşmaq və dedikdən sonra rahatlamaq, peşman olmaq istəyinin psixologiyası nədir?

Danışan bu məlumatı verməklə qarşı tərəfə özünü xüsusi hiss etdirdiyini zənn etdiyi halda, əslində özünün informasiya şəbəkəsinin zənginliyini, mənəvi dəyərlərinin müsbət fərqliliyini göstərməklə, bilici olmaqla özünü xüsusi hiss edir. Qarşı tərəfə məlumat verdiyini və bu məlumatdan onun da faydalanacağını düşünür. Eyni zamanda paylaşılan məlumatların xarakterinə görə dəstək alır, müxtəlif fikirləri dəyərləndirir və bu fikirlərdən qidalanır. Danışılacaq mövzu yaradılır, söhbətin səviyyəsini müəyyən edir. Bunun üçün mədəniyyət və bilik tələb olunmur. Sirri dedikdən sonra yaşanan peşmanlığın səbəbi isə bu faydanın konkret olaraq görülməməsi, sirrini paylaşaraq həmin şəxsə qarşı çətin vəziyyətdə olmaq hissinə çevrilməsidir.

SİA mövzu ilə bağlı psixoloq və ekspertlərin fikirlərini öyrənib.

**Psixoloq Aytən Ələkbərova:** "Ümumiyyətlə, fərdi yanaşma praktik psixoloqun əsas fəaliyyət prinsiplərindən biridir. Hansı ki, şəxsiyyətin fərdi xüsusiyyəti dedikdə bir şəxsin digərindən fərqli olan xüsusiyyətləri başa düşülür. Bu baxımdan da qadınların və yaxud kişilərin sirr saxlamasında yanaşma fərdidir. Yəni, xasiyyətnamə üçün materiallar müxtəlif həyat şəraitində aparılacaq müşahidə yolu ilə toplanılır.

Sirr saxlamaq insanın bir başa xarakteri ilə bağlı olduğuna görə həmin xasiyyətnamələrdə də hər hansı bir qiymətləndirmə hallarından uzaqlaşmaq məsləhətdir. Çünki burada ilk olaraq insanın psixi inkişafının gedişini təhlil edərək



praktik psixoloq üçün son dərəcə vacib olan nəticəyə gəlinir. Hər yaş mərhələsində psixanın inkişafında yaranmış daxili şərtlər sonradan həyata keçirilənlərdən daha çox zəngin olur.

Mənim üçün ən gözəl sirr saxlayan bəylərdir. Çünki kişidir və ulqumu var. Bu, haradan başlayır? Gəlin, qısa tarixçəsinə nəzər yetirək. Bilirik ki, kişilər ata genetikasından 90 faiz götürsələr də, ana genetikasının 10 faizi daha çox üstünlük təşkil edir. Bu 10 faizin içərisində bir oğlan uşağının ananı qoruması, onun yanında olaraq atadan qorumaq məqsədilə dostluq prinsipindən irəli gəlir. Deməli, kişilərə daha çox sirr saxlayan desək də, amma alt şüurun kökündə bu məsələ anadan keçir. Yəni, qadınlar daha yaxşı sirr saxlayır.

Sirr saxlamaq elə bir şeydir ki, sirrin sənin əsirindir. Sən o zaman sirrinin əsiri olursan ki, artıq onu başqası ilə bölüşmüş olursan. İnsanlarımız son günlər anlayır ki, dostdan da, qohumdan da yaxşı sirr saxlayan onları daha dərindən tanıyan psixoloqlarıdır. Psixoloqun yanında danışılan sirr elə orada da qalır. Doğrudur, ABŞ-da psixoloqlar "Pullu dost" adlandırılır. Amma bu "Pullu dost" olsa belə, sonunda səni anlayacaq və düzgün yerə yönləndirəcək bir dostdur. O praktik psixoloq olaraq fərdi yanaşmasıyla halal pulunu qazansa da, sən də arxayın olursan ki, mənim sirrim heç yerə çıxmayacaq.

Hər bir insanın marağı, qabiliyyəti, bütünlüklə şəxsiyyəti, özünü tərbiyəsi və yenidənqurması üçün fərdi sepisifik üsullar tapılmalıdır. İstər qadın olsun, istər kişi ilk önəmli olan xasiyyətnamədir. Hər şey insanın öz xarakterindən asılıdır".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Cəmiyyətdə belə bir rəy var ki, qadınlar sirr saxlamırlar və bu



gün eşitdiklərini sabah kiminsə ovcuna qoyurlar. Əslində, son illər müşahidələrimə əsasən deyə bilərəm ki, sirr saxlamaq kişi və ya qadınla bağlı deyil, birbaşa xarakterlə bağlı olan məsələdir. Yəni, xəbərçilik etmək, yaxud da kiminsə sirrini qoruyub saxlamaq sırf insan xarakteri ilə bağlı olan məsələdir. Mən bu gün eşitdiyini 5 dəqiqə sonra başqasının ovcuna qoyan çoxlu sayda qadın və analoji qaydada davranan çoxlu sayda kişi də görmüşəm. Yəni, həm qadın, həm də kişi tanışlarım olub ki, sirr saxlamayaraq kiminsə ayıb olan sirrlərini yayıblar.

İstənilən halda başqasının sirrini yaymaq insanlığa yaraşmır və ayıbdır. Hesab edirəm ki, əgər hansısa sirr bizə etibar olunubsa, biz onu qoruyub saxlamalıyıq. Bizim başqalarının sirrini yaymağa ixtiyarımız yoxdur. Bu, mənəvi cəhətdən düzgün addım deyil və insanı hörmətdən, etibardan salır. Sirr saxlamağı bacarmayan insanlar başqalarının yanında etibarsız kimi tanınır və onlara güvənmək olmaz. Mən də sirr saxlamağı bacarmayan insanlara güvənməməyi tərcih edirəm və həmişə mənə etibar olunan sirri gözbəbəyim kimi qorumağa çalışıram.

Buna görə də birmənalı şəkildə qərar vermək çətindir ki, qadınlar və yaxud kişilər sirr saxlamır. Bəlkə də nə vaxtsa qadınların sirr saxlamaması ilə bağlı problemlər olub. Amma indi sirr saxlamağı bacaran, hətta yanında baş kəsilsə belə onu sirr kimi saxlayan qadınlar var".

***Ayşən Vəli***



# Klassik media və sosial media: tənzimləmə prinsipləri necə olmalıdır?

## Media və sosial şəbəkələrdə informasiya təhlükəsizliyi necə təmin edilməlidir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**I YAZI**

Xəbər verdiyimiz kimi, avqustun 10-da Baş Prokurorluğun təşkilatçılığı ilə "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" mövzusunda konfrans keçirilib.

Azərbaycanda informasiya mühitinin sağlamlaşdırılması, qeyri-dəqiq və mənbəyi şübhə doğuran məlumatların tirajlanmasının qarşısının alınması məqsədilə təşkil edilmiş konfransda Baş Prokurorun müavini, Medianın İnkişafı Agentliyinin icraçı direktoru, Mətbuat Şurasının sədri, eləcə də nüfuzlu media orqanlarının rəhbərləri, ali təhsil müəssisələri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib.

Konfrans zamanı son dövrlər media sahəsində yol verilən qanun pozuntularına görə tətbiq olunan prokuror təsir tədbiri aktlarının tətbiqi əsasları, nəticələri barədə bəhs edilmiş, jurnalistlərin peşə davranışı qaydalarının tətbiqində mövcud problemlərdən söz açılıb.

İşgüzar tədbirdə səmərəli fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib, bu məzmunlu tədbirlərin düzgün informasiya mübadiləsində mühüm irəliləyişlərə səbəb olacağı qeyd edilib.

Son vaxtlar bu kimi tədbirlər artıq aktuallaşıb. Çünki mediamızda və sosial şəbəkələrdə vəziyyət dözülməz həddə çatır. Bu, artıq bütün vətəndaşların jurnalist funksiyasına yiyəndiyi bir platforma halına gəlib və informasiya məkanı müxtəlif siyasi, dini, etnik, sosial və cinayətkar qrupların təbliğat və mübarizə meydanına çevrilib. Bu vəziyyətdən isə həm cəmiyyətimiz, həm dövlətimiz zərər çəkir. Demək, bu sahədə tənzimləmələrə, nəzarətə ehtiyac var. Lakin bu, senzura demək deyil. Dünya ölkələrində media qanunlarına necə riayət olunursa, bizdə də elə olmalıdır.

### Mətbuat azadlığı necə tənzimlənməlidir?

Media ictimai rəyə ciddi təsir edən, cəmiyyəti informasiya ilə təmin edən, maarifləmməyə xidmət edən bir ictimai institutdur. Bu funksiyalarını yerinə yetirməsi üçün mediaya, jurnalistlərə azadlıq verilib. Lakin bu azadlıqdan necə istifadə edilməsi müzakirə mövzusudur. Peşə etikasına riayət etmək, yaradılmış şəraitdə öz işinə vicdanla yanaşmaq bu azadlıqların əsas şərtidirmi? Sosial şəbəkə istifadəçilərinin media funksiyası əldə edərək cəmiyyətə zərərli və təhlükəli saxta informasiyalar yaymasına görə heç bir cəza olmamalıdırmı? Bu yazımızda bunu aydınlaşdırmağa çalışacağıq.

Ölkəmizdə mediadan şəxsi məqsədləri üçün istifadə, şərəf-ləyaqətin ləkələnməsi, insan hüquqlarının pozulması, özəl və işgüzar həyata müdaxilə, milli və dini zəmində qarşıdurma yaratmağa cəhdlər, anti-dövlət təbliğatı aparma hallarına kifayət qədər rast gəlinir.

Mətbu orqan təsis etməkdə məhdudiyyətlərin götürülməsi, internet medianın sürətli inkişafı, dövlətin mediaya yardımları müsbət tendensiyalardandır. Lakin bu prosesin mənfi tərəflərini də qeyd etmək lazımdır. Yəni, kəmiyyət cəhətdən inkişaf var, keyfiyyət tərəfdən isə yox.




Azərbaycanda mətbuat azadlığından sui-istifadə halları son vaxtlar getdikcə artır. Bu faktlar media qanunvericiliyi və ictimai qınaq kontekstindən nəzərdən keçirildikdə belə bir sual çıxır- İfrat mətbuat azadlığı anarxiyaya və özbaşınalığa, insan hüquqlarının və qanunların pozulmasına, milli və dövlət maraqlarının zərbə altına qoyulmasına gətirib çıxara bilərmi? Bu suala cavab vermək üçün mövcud vəziyyəti nəzərdən keçirməyə ehtiyac var.

Tam nəzarətsizlik və cəzasızlıq şəraitində, ultra-azadlıq mühitində aşağıdakılar baş verir:

1. Mətbuat vasitələrinin sayı ifrat dərəcədə artır, istənilən kənar şəxsin bir vəsiqə alaraq jurnalist kimi ortada dolaşması ilə medianın və jurnalistlərin nüfuzu aşağı düşür.

2. Cəzasızlıq sindromu böhtan, təhqir, şantaj kimi halların çoxalmasına gətirib çıxarır ki, bu da cəmiyyətdə narazılıq yaradır, insan hüquqlarının pozulmasına səbəb olur.

3. Oxucu auditoriyasının minlərlə qəzet, sayt arasında parçalanması nəticəsində hər media vasitəsinin izləyici sayı aşağı düşür, gəlirlər azalır, peşəkar jurnalistlər bu sahədən uzaqlaşmağa və onların yerini diletantlar tutmağa başlayır.

4. Hətta təhlükəli siyasi, dini və digər təşkilatlar belə mətbu orqanlar təsis etməklə cəmiyyətdə zərərli ideyaları təbliğ edir, antimilli, anti-dövlət təbliğatı aparırlar.

5. Bir çox qəzetlər, saytlar yaranmış münbit şəraitdən maksumum yararlanaraq reketçiliklə məşğul olmağa başlayır və jurnalistikanı gözdən salırlar.

### Azərbaycanda mətbuat azadlığı necə başa düşülür?

Bir çox ölkələrdən fərqli olaraq Azərbaycanda mətbuat azadlığını bəziləri özbaşınalıq, şantaj, hədə-qorxu və böhtan üsullarından istifadə edib rüşvət almaq, xoşu gəlmədiyi şəxsin şərəf-ləyaqətini tapdalamaq və ya insanları təhqir etmək azadlığı kimi qavrayırlar.

Əgər ölkədə media azadlığı olmasaydı, həbs olunan, cərimə olunan jurnalistlərin sayı-hesabı olmazdı, çünki ölkə mediasını izləyəndə hər gün yüzlərlə ciddi qanun pozuntusuna, məmurların təhqirinə, vətəndaşların şantajına rast gəlmək olur. Amma jurnalistlərin məhkəməyə vermə hallarına çox nadir hallarda rast gəlinir.

Jurnalist vəsiqəsi bəzi hallarda qoruyucu sipər kimi cibdə daşınır. Vəziyyət o yerə gəlib çatıb ki, cibində jurnalist vəsiqəsi olan adam ağır cinayət edəndə və buna görə həbs ediləndə yazırlar ki, bəs filankəs jurnalist olduğuna görə azad edilməlidir.

Hətta iri məbləğdə rüşvət aldığı yerdə yaxalanan "jurnalist"lərin həmkarları tərəfindən müdafiəsi halları da var. Bu, cəmiyyət üçün çox mənfi bir nümunədir. Əslində, belə "jurnalist"lərə qarşı mübarizəni ilk növbədə elə biz özümüz aparmalıyıq.

### Qaş düzəltməli olan medianın göz çıxartması

Son dövrlərdə informasiya texnologiyalarının sürətli inkişafı və sosial media adlandırılan bir sistemin meydana çıxması media sahəsində ziddiyyətli vəziyyət yaradıb. Belə ki, artıq internet saytlar və sosial şəbəkə kanalları özlərini media kimi təqdim edərək zərərli informasiyaları cəmiyyətə ötürə bilirlər. Bir sıra media subyektləri və sosial şəbəkə kanalları tərəfindən intihar halları və cəmiyyət əxlaqına zərbə vuran materialların yayımlanması cəmiyyətdə narahatlıq yaradır və haqlı olaraq ictimai narazılığa səbəb olur.

Medianın 3 əsas funksiyası varməlumatlandırma, maarifləndirmə və əyləndirmə. Bu gün özünü media kimi qələbə verən subyektlər isə bu funksiyaların əvəzinə özləri üçün yeni funksiyalar müəyyənləşdiriblər- aldatma, təşvişə salma, təhrik etmə. Bunu bir çoxları bilməyərəkdən etsə də, bilərəkdən edənlər də az deyil. Normal mediada əhalinin həssas qruplarına, uşaqların, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran məlumat və təsvirlərdən istifadə olunmamalıdır.

Bizdə ictimai qınaq da zəif olduğundan, saxta xəbərlər yayan, zərərli təbliğat aparan subyektlər qınaq və etiraz əvəzinə izləyici kütləsi və müvafiq olaraq da pul əldə edir. Halbuki, əhalinin maariflənmə səviyyəsi yüksək olmalı, cəmiyyətə zərər vuran belə media subyektləri və sosial şəbəkə kanalları istifadəçilər tərəfindən kütləvi blok edilməlidir.

Yeni qəbul olunmuş Media haqqda Qanun bu halları da tənzimləyəcək bir qanun olsa da, hələlik qanunun tələbləri tam tətbiq olunmadığından belə hallara çox rast gəlinir. Amma bəzi məsələlər var ki, heç qanunla da tənizmlənmir. "Vətəndaş jurnalistikası" adlandırılan və peşə olaraq deyil, hobbi olaraq həyata keçirilən fəaliyyət bu Qanunun təsir dairəsinə daxil deyil. Məsələn, qanun sosial şəbəkələrin və "blogger"lərin fəaliyyətini tənzimləmir. Amma etik kodekslər, vicdan və sosial məsuliyyət olmalıdır ki, mən nə yazıram, nə təbliğ edirəm, cəmiyyətə nə verirəm. Bu hər şeydən əvvəl insanlıq, vətəndaşlıq məsələsidir.

Bu məsələlərə həm ictimai həm də dövlət nəzarətinin gücləndirilməsinə ehtiyac böyükdür. Əksər ölkələrdə belədir. Əks halda media və sosial şəbəkə kanalları cəmiyyətə fayda verməli olduqları halda zərər vermiş olurlar. Məsələn, nüfuzlu sosial araşdırma mərkəzlərinin araşdırmalarına görə, intihar, zorlama, qətl xəbərlərinin mediada geniş yayılması insanların şüuraltında yerləşərək tədricən psixologiyanı dəyişir və cəmiyyətdə həmin halların artmasına səbəb olur. Xüsusən də uşaq və gənclərdə bu daha pis nəticə verir. İndi əksər uşaqların əlində smartfon var və onlar bu tip zərərli məlumatlara çıxışı çox rahatdır. Bu səbəbdən belə məsələlərə ciddi nəzarət edilməlidir.

*Ardı var*

***Elçin Bayramlı***



SON SƏHİFƏ
SƏS
12 avqust
2022-ci il

# Çay nədir, say nədir...

**Bu yay Həsən kişinin rayondan qonağı gəlmişdi. Kişi də nə eləsin? Qonağı evdə-dörd divarın içərisində saxlamayacaq ki... Dedi, ə Məmməd, evdə oturmağa gəlmisən? Dur səni aparım, bir şəhərlə tanış ol, gör bir nə var, nə yox.**

Axşamüstü kişilər durub çıxırlar şəhərə. Üz tuturlar dəniz kənarına doğru. Axşamçağı olmasına baxmayaraq havadan od tökülür, sərinləmək bilmir ki, bilmir. Bu kişilər də yaşlı adam, nə eləsinlər. Bir kölgəlik axtarırlar ki, oturub dincəlsinlər. Məmməd kişi də rayondan gəlmiş, kəndin sərin havasına öyrəşmiş, burada da havasını-suyunu dəyişmiş adam. Dedi, ay Həsən, gəl oturub bir çay içək, dilim ağzımda yandı.

Yaxınlaşdılar bir məkana. İnsafən hər tərəf tər-təmiz, abad, gözəldir. Əyləşirlər. Həsən kişi ofisiantı çağırıb, bir çay sifariş verir. Ofisiant soruşur ki, sadə olsun, yoxsa...

Həsən kişi də cavab verir ki, bala, çay sadə olar da, başqa nə cür olur ki, bəlkə xəbərimiz yoxdur. Ofisiant da başlayır sayır-sayır, deyir ki, yanında bunlar olsunmu, demək istədim. Həsən kişi də deyir ki, yox bala, biz elə atababa çayı istəyirik.

Ofisiant gedir, bir azdan əlində sini ilə qayıdır, üzərində də bir çaynik çay, iki stəkan, iki nəlbəki, bir də ki, qənd. Bunları ehmalca ağsaqqalların masasına qoyub qayıdır. Həsən kişi ilə Məmməd kişi də çaydan süzüb söhbət edə-edə içirlər.

Bir azdan Həsən kişi:

- Məmməd, deyəsən, yerini bəyəndin, ha. Qalx ayağa gedək, oturmağa gəlmisən. Dur gedək gəzək.

Həsən kişi ofisiantı çağırır, borcunu soruşur, o da deyir. Həsən kişi tutulsa da, özünü Məmməd kişinin yanında sındırmır, pulu ödəyir, gedirlər. Həsən kişi düşünür ki, yüz ilin bir başı Məmməd durub rayondan onun evinə qonaq gəlib: ta simiclik etməyəcəm ki... Olmasın bu ayın pensiyasının yarısı.

Bu minvalla, gecə evə qayıdanadək 4 dəfə müxtəlif yerlərdə əyləşib çay içirlər. Həsən kişi 4 çaynik çay üçün 20-30 manat xərcləyir. Bunu Məmməd kişi də müşahidə edir. Evə qayıdanda yolda çayla bağlı söhbəti açır və deyir:

- Ay Həsən, bu çay bizim rayondakı çaydan deyil, nə yaman qiymətli olub şəhərdə belə? Ay qardaş, bir çaynik su, bir çimdik çay nə vaxtdan 5-6 manat olub ki? Heyf deyil, rayon, bir çaynik çay 1 manatdı. Nə qədər istəyirsən, iç.

**Həsən kişi:**

- Ay Məmməd, indi nə öz qiymətinə satılır ki? Kim nəyi neçəyə istəyir, satır. İstəyirsən al, istəmirsən xoş gəldin.

Kişilər söhbət edə-edə çatırlar evə. Evdə söhbətə Həsən kişinin oğlu da qoşulur. Deyir siz hələ sadə çay içmisiniz, bu qədər gileylənirsiniz. Bəs siz çay dəstgahı təklifini qəbil etsəydiniz, nə edərdiniz? Onun qiymətini eşitsəniz, bu gecə yuxunuz qaçar, ona görə də yaxşı olar ki, deməyim.

Kişilər bu məsələni müzakirə edirdilər ki, Həsən kişinin həyat yoldaşı Mənsurə xala ortaya pürrəngi çay gətirir. Həsən kişi bir çaya, bir Mənsurə xalaya baxır, deyir, ay Mənsurə bu gün anladım ki, yenidən dünyaya gəlsəm, ölənədək sənin tək bu çay haqqını ödəyə bilmərəm. İllərdi, çaydı ki, dəmləmisən, çaydı ki, içmişik, "Çayın biri qaydadır, ikisi cana faydadır, üçü nəsdir, dördü bəsdir. Çatdı beşə, vur on beşə. Çay nədir, say nədir" misalı.

Evdəkilər Həsən kişinin bu sözünə xeyli güldülər...



FELYETON

***Mətanət MƏMMƏDOVA***



## Bakıda evlərdən 15 min manatlıq oğurluq edilib

Bakıda evlərdən 15 min manatlıq oğurluq edilib. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda ayrı-ayrı şəxslərə məxsus 7 evdən ümumilikdə 1465 manat pul, 7915 manat dəyərində qızıl əşyalar, 3000 manat dəyərində inşaat materialları, 2940 manat dəyərində velosiped, su mühərriki, elektrik naqili və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Qala qəsəbə sakinləri C.Həzrətquliyev və əvvəllər məhkum olunmuş T.Əmiraslanov saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## Uşaqlar hansı cizgi filmlərinə baxmalıdır?

"Cizgi filmlərin və kinofilmlərin həyatımızda rolu həm müsbət , həm də mənfi olaraq çox böyükdür. İlk olaraq qeyd etmək istəyirəm ki, 3 yaşa kimi uşağın televizor qarşısında saatlarla vaxt keçirməsi onun psixi inkişafına faydadan çox ziyan vurur. Bu, uşaqda diqqət, reaksiya zəifliyi, pedaqoji ləngimə və s. kimi problemlərə yol aça bilər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Tahiba Quliyeva bildirib.

Psixoloq qeyd edib ki, cizgi filmləri uşaqlar üçün öyrədici xarakter daşıyır: "Cizgi filmlərdən uşaq faydalı məlumatlar öyrəndiyi kimi, qorxunu, aqressiyanı, şiddəti də öyrənir. Buna görə cizgi filmləri uşağın yaşına və inkişafına uyğun seçilməli, müəyyən zaman dilimi ilə izlətdirilməlidir. Bildiyiniz kimi, bu gün dünyada bir çox mesajlar subliminal olaraq cizgi filmləri ilə uşaqların beyinlərinə ötürülür. Uşaqlar arasında hansısa oyunlar oynayıb, cizgi filmlər izləyib intihar halları baş verir. Son zamanlarda cizgi film vasitəsilə uşaqlara LGBT təlqin edilir. Dünyada bir çox ölkədə qadağan edilmiş Buzz lightyear cizgi filmi təəssüf ki, son günlərdə bizim kinoteatrlarımızda nümayiş etdirilir. Bu haldan bir çox valideynlər narahatlıq və şikayətlərini dilə gətirsələr də, məsələ öz həllini hələ də tapmayıb.

Cizgi filmlər seçərkən onun aqressiya, şiddət, qorxu məzmunlu olmamasına, uşağın diqqətini inkişaf etdirməsinə, öyrədici, uşağın inkişafına uyğun olmasına, qulağı narahat edən kəskin səslərin olmamasına, gözü yormayan rənglərdə olmasına diqqət yetirilməlidir. Cizgi filmləri uşaqlara saatlara izlətdirilməməli, onların inkişafına fayda verməlidir".



***Banuçiçək Hüseynli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL
YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3300**